17 mart 2023 №20-21 (1990)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qalibiyyət ovqatlı üçüncü Novruzumuz mübarək!

Milli-mənəvi irsimizin ən qədim yaddaşı və zəngin saxlancı olan Novruz martın 20-də torpağımıza qədəm qoyur. Azərbaycan xalqı əsrlər boyu baharın gəlişini sevinclə, təmtəraqla qarşılayıb. Əcdadlarımız Novruzu oynaq, lətafətli nəğmələr, yaradılışın ilkin atributları – su, od, yel və torpağı təcəssüm etdirən mifoloji görüşlərlə bağlı ayin və mərasimlərlə bəzəyiblər.




Novruz qədim dövrlərdən bərəkət və firavanlığın rəmzi kimi bayram edilib. Novruz – həyatın yenilənməsi, təbiətin dirçəlişi, ruhumuzun bayramıdır. Artıq üçüncü ildir bu bayramı bizi dünyaya məğrur xalq olaraq tanıdan şanlı Zəfərin tariximizə bəxş etdiyi əbədi bahar havasında qarşılayırıq. Bu qalibiyyət ovqatını bizə yaşadan, Vətənimizin ərazi bütövlüyü naminə canlarını fəda edən qəhrəmanları bir daha rəhmətlə anırıq.

İşğaldan azad olunmuş yurd yerlərimizdə geniş quruculuq işləri davam edir. İnanırıq ki, bu baharın qurub-yaratmaq əzmini artıran havası torpaqlarımızın dirçəlişinə yeni nəfəs bəxş etməklə Böyük Qayıdışı daha da sürətləndirəcək.

Bayramımız mübarək!

## Uşaq İncəsənət Festivalı üçün 15 min nəfər qeydiyyatdan keçib

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalına qeydiyyat davam edir.

16 mart tarixinədək müxtəlif şəhər və rayonlar üzrə 15 mindən çox uşaq qeydiyyatdan keçib.

Xatırladaq ki, uşaq festivalına 21 nominasiya üzrə istedadına, bacarığına güvənən 6-17 yaş arası hər kəs qatıla bilər. Festival həm peşəkar, həm də həvəskar kateqoriyalar üzrə üç yaş qrupunda (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) keçiriləcək.

İştirakçıların qeydiyyatı 20 fevral – 30 mart tarixlərində www.uif.az internet saytı üzərindən aparılır.

## Xalqları yaxınlaşdıran dəyər

Tarixi minilliklərlə ölçülən Novruz bayramı Azərbaycanla yanaşı Orta Asiyadan Balkanlaradək bizə yaxın-uzaq coğrafiyalarda da qeyd olunur. Novruz 2009-cu ildə çoxmillətli irs nümunəsi kimi UNESCO-nun siyahısına daxil edilib. 2010-cu ildə isə Azərbaycan, Albaniya, Əfqanıstan, Makedoniya, İran, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan, Hindistan və Türkiyənin təşəbbüsü ilə BMT-nin Baş Assambleyası 21 martı Beynəlxalq Novruz Günü elan edib. Beləliklə, Novruz beynəlxalq status qazanaraq dünyaya təqdim olunub.

Novruz bu gün mədəniyyətlərarası dialoqa zəmin yaradan, xalqları yaxınlaşdıran, bir-birinə tanıdan dəyərdir. Hər il olduğu kimi, bu il də xalqımızın qədim bayramı ilə bağlı irs və ənənələr müxtəlif ölkələrdə təqdim edilir.

*davamı səh. 3-də*

## Heykəltəraşlarımızın Moskva muzeyindəki əsərləri illər sonra sərgidə




Martın 17-də Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (XTNS) "Azərbaycan" pavilyonunda "1940-1950-ci illər Azərbaycan dəzgah heykəltəraşlığı" sərgisi açılacaq.

Heydər Əliyev Fondunun dəstəyi və Rusiya Dövlət Şərq Muzeyinin iştirakı ilə təşkil edilən sərginin ziyarətçiləri sosializm realizmi dövründə Azərbaycan incəsənəti üçün əlamətdar nümunələr sayılan on monumental işlə tanış olacaqlar. Sərginin yaradılması Rusiya Dövlət Şərq Muzeyinin ehtiyat fondlarında Azərbaycan heykəltəraşları Elcan Şamilov, Fuad Abdürəhmanov, Hüseyn Əhmədov, Cəlal Qaryağdı və Pinxos Sabsayın əl işlərinin tapılması ilə başlayıb. Onların 1940-1950-ci illərdə gips, mərmər və ağacdan hazırlanmış plastika nümunələri müxtəlif sərgilərdən sonra bu muzeyə hədiyyə edilmişdi.

Baxımsız qaldığı illərdə xeyli zədələnmiş bu eksponatlar Heydər Əliyev Fondunun köməyi ilə muzeyin mütəxəssisləri tərəfindən bərpa olunub.

# Dost dar gündə tanınır...

## TDT dövlət başçıları əsrin fəlakəti ilə üzləşən Türkiyəyə tam dəstək ifadə ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib. "Fəlakət – fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan zirvə görüşü Türkiyədə baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirəsi, TDT müstəvisində qardaş ölkəyə bundan sonrakı dəstək fəaliyyətlərini koordinasiya etmək məqsədilə çağırılıb.




Zirvə görüşündə TDT-nin üzv ölkələri Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, eləcə də müşahidəçi üzvlər Macarıstan və Türkmənistanla, yanaşı, 2022-ci ildə Səmərqənd zirvəsində təşkilata müşahidəçi üzv qəbul edilən Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) də təmsil olunub.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxış edərək Türkiyədə baş verən zəlzələdən sonra fövqəladə zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Sonra TDT-yə sədrlik edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev çıxış edib. Türkiyədə baş vermiş zəlzələnin bütün Türk dünyasını dərindən sarsıtdığını vurğulayan dövlət başçısı TDT çərçivəsində Təbii Fəlakətlərin Monitorinqi və Təhlili Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürüb.

Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin törətdiyi fəsadlar, qardaş ölkəyə edilən humanitar yardımlar barədə videoçarx nümayiş olunub. Fəlakət nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov çıxış edərək türk dövlətlərinin bir-birinə hərtərəfli dost və qardaş dəstəyi verməsinin, belə ağır günlərdə bir olmasının vacibliyini vurğulayıb.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bildirib ki, qardaş Türkiyədə çoxsaylı insan tələfatı doğuran fəlakətdən dərhal sonra Azərbaycan hökuməti və xalqı qardaş ölkəyə humanitar yardımlar etmək üçün səfərbər olub. Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə 3 mindən artıq şəxsə tibbi xidmət göstərib. Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülüb. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılıb.

"Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaq", – deyən İlham Əliyev əmin olduğunu bildirib ki, Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaq.

Dövlət başçısı xatırladıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. Eyni zamanda, 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. 2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında imzalanan "Şuşa Bəyannaməsi" ilə əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılıb.

Türkiyənin son 20 ildə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə dünyada söz sahibi olduğunu, güc mərkəzinə çevrildiyini deyən İlham Əliyev qeyd edib ki, bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Türkiyənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

Otuzillik işğaldan azad edilən torpaqlarımızda aparılan bərpa və quruculuq işlərindən bəhs edən Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır: "Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq. Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misli görünməmiş bir yenidənqurma modelidir".

*davamı səh. 2-də*

## Xətai Sənət Mərkəzində "Baharın rəngləri"

"Heydər Əliyev İli" çərçivəsində elan olunmuş "Baharın rəngləri" adlı Respublika uşaq rəsm müsabiqəsinə yekun vurulub. Müsabiqənin müvafiq yaş qrupları üzrə sərgiləri 14, 15, 16, 17 mart tarixlərində paytaxtdakı Xətai Sənət Mərkəzində keçirilir.

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilən müsabiqəyə 21 yaşadək 2000-dən çox uşaq və gənc əl işlərini göndərib. Onlardan 800-dən çox müəllifin rəsm əsəri sərgilənmək üçün seçilib.

Sərginin açılışında Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov müsabiqə barədə məlumat verib. Azərbaycan Dövlət Rəsm Qalereyasının nümayəndəsi Elçin Hüseyn, Xətai Rayon İcra Hakimiyyətinin nümayəndəsi Mehriban İsrafilova və digər çıxış edənlər müsabiqə və sərgidə nümayiş olunan əsərlərlə bağlı fikirlərini bölüşüblər.



Qeyd edək ki, dörd gün ərzində hər sərgidə 200 rəsm nümayiş olunur. Seçim zamanı müəllifin yaşı nəzərə alınmaqla düzgün kompozisiya, rəng seçimi, ideya və kənar müdaxiləsiz əsərlərə üstünlük verilib.

Əsəri sərgidə nümayiş olunan müəlliflər sertifikatla və an azı 5 üzvü ilə təmsil olunan yaradıcılıq müəssisələri isə təşəkkürnamələrlə təltif edilirlər.

## Novruzu doğma yurdda qarşılayacaqlar...

### "Böyük Qayıdış"ın ikinci ünvanı Tərtərin Talış kəndidir

İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramı çərçivəsində martın 16-da Tərtər rayonunun Talış kəndinə ilkin mərhələdə 20 məcburi köçkün ailəsi köçürülüb.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Tərtər Rayon İcra Hakimiyyətinin nümayəndələri yolasalma mərasimində iştirak ediblər.

Sonra Bakı, Bərdə, Tərtər, Samux və Goranboyda əsasən ağır şəraitdə, qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma yerlərində yaşayan 20 ailə (90 nəfər) 30 ildən sonra doğma yurdlarına doğru yola çıxıblar.



Onları Talış kəndində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və rayon İcra Hakimiyyətinin əməkdaşları qarşılayıblar.

Azərbaycan dövlətinin qısa vaxtda Talış kəndində yaratdığı şəraitlə tanışlıqdan sonra sakinlər üçün nahar süfrəsi açılıb.

Kənd sakinləri uzun illərdən sonra doğma torpaqlarına qovuşmalarının sevincini yaşadıqlarını bildiriblər.

Qeyd edək ki, Azərbaycan Ordusu Vətən müharibəsində, 2020-ci ilin 3 oktyabrında bu strateji ərazini düşməndən azad edib. Dövlətimizin başçısının tapşırıqları əsasında Talış kəndində tikinti-bərpa işləri aparılıb, yeni evlər inşa olunub, zəruri infrastruktur yaradılıb. Talış kəndində məskunlaşdırılacaq 20 ailədən 15-i üçotaqlı, 1-i ikiotaqlı, 4-ü dördotaqlı fərdi evlə təmin olunub.

Beləliklə, Talış kəndinin sakinləri uzun illərdən sonra Novruzu doğma torpaqlarında qeyd edəcəklər.

Xatırladaq ki, bu il Zəngilan rayonu Ağalı kəndinin sakinləri də əziz bayramı doğma yurdda qeyd edir. 2022-ci ildə və bu ilin əvvəlində üç mərhələdə Ağalıya ümumilikdə 86 ailə (420 nəfər) qayıdıb.

BXA-da bayram proqramı



səh. 3

Qərb mədəniyyətlərində islamofobiyanın qarşısını necə almalı?

Bakıda beynəlxalq konfrans keçirilib

səh. 2



"Günəşə qovuşmaq istəyirəm mən!"

səh. 3

№20-21 (1990)
17 mart 2023
www.medeniyyet.az

## Xalq yazıçısı Anar 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunub

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyevin martın 15-də imzaladığı sərəncamla Anar Rəsul oğlu Rzayev Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, martın 14-də yazıçının 85 yaşı tamam olub. Anar yaradıcı və ictimai fəaliyyəti boyunca bir sıra dövlət təltiflərinə, mükafat və fəxri adlara layiq görülüb. Yazıçıya 1976-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adı, 1980-ci ildə Azərbaycan SSR Dövlət Mükafatı (Akademik Dram Teatrında "Şəhərin yay günləri" pyesinin tamaşasına görə), 1998-ci ildə "Xalq yazıçısı" fəxri adı, 2011-ci ildə Heydər Əliyev Mükafatı verilib. Həmçinin "İstiqlal" ordeni (1998), "Şərəf" ordeni (2013), "Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu" (2018) ilə təltif edilib.

Xalq yazıçısını 85 illik yubileyi və növbəti dövlət təltifi münasibətilə təbrik edir, möhkəm cansağlığı, bundan sonra da yaradıcılıq və həyat enerjisi ilə dolu uzun ömür arzulayırıq.

## Dost dar gündə tanınır...

əvvəli səh. 1-də



Diqqətə çatdırılıb ki, bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. İndiyədək Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard dollardan çoxdur. Prezident Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla gedib.

Azərbaycan Prezidenti işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikilən məktəbə və Qazaxıstan tərəfindən inşa olunan yaradıcılıq mərkəzinə görə hər iki həmkarına – Şavkat Mirziyoyevə və Kasım-Jomart Tokayevə minnətdarlığını bildirib.

Prezident çıxışında tarixi torpağımız olan Qərbi Zəngəzurun 1920-ci ildə sovet hökumətinin qərarı ilə Azərbaycandan qoparılıb Ermənistana verilməsinə toxunaraq bildirib ki, bu, Türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olub. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulub.

Diqqətə çatdırılıb ki, Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar: "Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılıqlı prinsipi əsasında qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir".

***

Zirvə görüşündə daha sonra çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev zəlzələ ilə əlaqədar türk xalqının yaşadığı ağrı-acının bütün türk dövlətləri tərəfindən paylaşıldığını bildirib, ölkəsinin qardaş Türkiyəyə hər zaman yardım göstərməyə hazır olduğunu qeyd edib.

Qırğızıstan Prezidenti Sadır Japarov da qırğız xalqı ilə türk xalqı arasında tarixi əlaqələrin bundan sonra da davam edəcəyini bildirərək humanitar yardım kimi məsələlərin təşkilata üzv dövlətlərdən birgə fəaliyyət, sıx əməkdaşlıq tələb etdiyini vurğulayıb.

Macarıstanın Baş naziri Viktor Orban Türkiyədə zəlzələdən sonrakı yenidənqurma işlərinə dəstək verməkdən şərəf duyacaqlarını deyib.

ŞKTC-nin Prezidenti Ersin Tatar tədbirə dəvətə və bu zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Türkiyə və Azərbaycan prezidentlərinə minnətdarlığını bildirib.

Sonra TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, təşkilatın baş katibi Kubanıçbek Ömüralıyev çıxış ediblər.

Prezident Rəcəb Tayyib Ərdoğan zirvə görüşü təşəbbüsünə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edərək toplantının qardaşlığımızın təzahürü olduğunu vurğulayıb.

Zirvə görüşünə yekun vuran Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qəbul olunan qərarların ölkələrimiz arasında əməkdaşlığa yeni töhfələr verəcəyini bildirib.

Sonda Ankara bəyannaməsi və TDT-də mülki müdafiə mexanizminin qurulmasına dair protokol imzalanıb. Bəyannamədə zəlzələlərdən sonra bərpa və yenidənqurma işlərində Türkiyə xalqı və hökuməti ilə həmrəylik ifadə edilib.

## Qədim yapon musiqisi ilə muğamın sintezi

### Koto ifaçısı Bakıda konsert verib

Martın 15-də Beynəlxalq Muğam Mərkəzində yapon ənənəvi musiqi aləti olan koto ifaçısı Nobutaka Yoşizavanın konserti təşkil edilib. Konsert Yaponiyanın ölkəmizdəki səfirliyi tərəfindən "Yapon küləyi" adlı silsilə tədbirlər çərçivəsində keçirilib.



Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada ənənəvi yapon musiqi aləti koto və ifaçı haqqında məlumat verərək belə tədbirlərin Azərbaycanda yapon mədəniyyətinə marağı daha da artıracağına ümidvar olduğunu bildirib. Diplomat bu il fevral ayından başlayaraq reallaşan "Yapon küləyi" adlı silsilə tədbirlərin də bu məqsədə xidmət etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, qədim zamanlarda yalnız saray musiqi aləti kimi istifadə olunan koto müasir Yaponiyada bir çox musiqi aləti ilə birgə və ya solo şəkildə ifa olunaraq, öz zərif səs tonu ilə qəlbləri oxşayır. Koto musiqi alətinin gənc ifaçısı, məşhur "Kencun" mükafatının sahibi Nobutaka Yoşizava indiyədək bir sıra ölkələrdə konsert proqramı ilə çıxış edərək son zamanlar yapon koto musiqisinin fəal təbliğatçısı kimi tanınır.

Sonra Nobutaka Yoşizava klassik koto musiqilərini ifa edib. Onun Azərbaycan muğam musiqisi ilə sintez ifaları xüsusilə alqışlar doğurub.

## Azərbaycan Almaniya və Avropa İttifaqı üçün mühüm tərəfdaşdır

Azərbaycan həm Almaniya, həm Avropa İttifaqı üçün əhəmiyyəti artan tərəfdaşdır. Biz ötən il ölkələrimiz arasında diplomatik münasibətlərimizin 30 illik yubileyini də qeyd etdik. Bu gün ikitərəfli əməkdaşlığımızı necə dərinləşdirəcəyimiz haqqında gözəl fikir mübadiləsi apardıq. Azərbaycan və Avropa İttifaqı Şərq Tərəfdaşlığı çərçivəsində daha da sıx əməkdaşlıq etmək istəyir. Ölkənin həm Almaniyanın, həm də Avropa İttifaqının enerji təchizatı üçün böyük potensialı mövcuddur.

Almaniya Kansleri Olaf Şolts bu sözləri martın 14-də Berlində Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdən sonra birgə mətbuat konfransında deyib.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev 13-14 mart tarixlərində Almaniyada işgüzar səfərdə olub. Dövlət başçısı martın 13-də Berlində Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşüb. Görüşdə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Martın 14-də Azərbaycan Prezidentinin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək və geniş tərkibdə görüşləri olub. Almaniya Prezidenti ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına tərəfdar olduğunu, bu istiqamətdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin apardığı missiyaya dəstək verdiyini diqqətə çatdırıb. Bu əsnada tezliklə Brüsseldə yeni görüşün keçiriləcəyinə ümidvar olduğunu deyən Frank-Valter Ştaynmayer Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan tərəfindən beş prinsipi özündə əhatə edən sülh müqaviləsinin imzalanması ilə bağlı təşəbbüs irəli sürülüb və iki ölkə arasında sülh müqaviləsi bu prinsiplər əsasında imzalana bilər. İlham Əliyev bildirib ki, Azərbaycanın mövqeyi iki yanaşmadan ibarətdir. Birinci yanaşma Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, ikinci yanaşma isə Azərbaycanın Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsidir.



Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycan tərəfindən müəyyən olunmuş nümayəndə martın 5-də Azərbaycanın Qarabağ bölgəsindən olan sakinlərlə görüşüb, Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən Qarabağın erməni ictimaiyyətinin nümayəndələri reinteqrasiya məsələləri və bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi üzrə təmasların davam etdirilməsi üçün Bakıya dəvət olunub. Prezident İlham Əliyev separatizmin bütün forma və təzahürlərinin qəbuledilməz olduğunu qeyd edib, separatist meyillərə münasibətdə vahid mövqeyin nümayiş etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması məsələsi Prezident İlham Əliyev və Kansler Olaf Şoltsun görüşündə də diqqətə alınıb.

"Bizim üçün vacibdir ki, Azərbaycan və Ermənistan arasında uzunmüddətli münaqişə artıq özünün sülh yolu ilə həllini tapsın. Açığını deyək ki, Almaniya Ermənistan-Azərbaycan sərhədində mövcud olan qeyri-sabit duruma görə bir az narahatdır. Təbii ki, burada gərginliyin artması təhlükəsi mövcuddur və son aylar, son həftələr baş verən hadisələr bunu göz qabağına gətirdi. Bizim arzumuz budur ki, bu münaqişə qısa bir zamanda, yerindəcə uzunmüddətli və qəbul olunan həllini tapsın. Burada sülh yolu ilə həll deyəndə təbii onu nəzərdə tuturuq ki, həm Azərbaycanın, həm də Ermənistanın ərazi bütövlüyü təmin olunsun", – deyə Olaf Şolts bildirib.

Kansler qeyd edib ki, Almaniya bu prosesdə öz dəstəyini göstərməyə hazırdır. O diqqətə çatdırıb ki, Avropa İttifaqının Ermənistanda mülki missiyası mövcuddur və bu missiyaya rəhbərlik Almaniya tərəfindən təmin edilib.

Prezident İlham Əliyev mətbuata bəyanatında Ermənistan-Azərbaycan normallaşma prosesi ilə bağlı ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb: "İstəyirəm ki, Almaniyanın mətbuat nümayəndələri bilsinlər ki, Azərbaycan 30 ilə yaxın erməni işğalına məruz qalmışdır. Bu işğal və etnik təmizləmə nəticəsində torpaqlarımızın 20 faizə yaxını işğal altına düşdü və bir milyon azərbaycanlı Ermənistan tərəfindən öz doğma torpaqlarından qovulmuşdur və qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Biz iki il yarım bundan əvvəl Vətən müharibəsi nəticəsində öz ləyaqətimizi, ərazi bütövlüyümüzü, hüquqlarımızı döyüş meydanında bərpa etdik, Ermənistanı məğlub etdik və məcbur etdik ki, Ermənistan bizim torpaqlarımızdan çıxsın. Beləliklə, 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışmalı olmuşdur".

Prezident qeyd edib ki, indi isə sülhün zamanı çatıb: "Biz Ermənistana 5 prinsip əsasında sülh müqaviləsini təklif etmişik. Ümid edirəm ki, Ermənistan bu şansı qaçırmayacaq, nəhayət, Cənubi Qafqazda sülh və əməkdaşlıq dövrü başlayacaqdır".

Dövlət başçısı Almaniya rəhbərliyi ilə görüşdə üzərində xüsusi dayanılan enerji əməkdaşlığı məsələsinə də toxunaraq bildirib ki, keçən il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu bizim niyyətimizi göstərir. Memorandumun sürətlə, vaxtında icrası bir daha göstərir ki, Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır.

"Biz Avropa məkanına qaz ixracatımızı artırırıq. 2021-ci ildə əgər Avropaya 8 milyard kubmetr qaz ixrac etmişiksə, bu il bu rəqəm təqribən 12 milyard kubmetrə çatacaq. Bu, bizim ümumi ixracatımızın yarısı deməkdir, gələcək illərdə öz ixrac coğrafiyamızı Avropada genişləndirmək istərdik. Dünən mənim 30-a yaxın almaniyalı iş adamı ilə görüşüm olmuşdur. İki saata yaxın davam edən bu görüşdə Azərbaycana, Azərbaycan iqtisadiyyatına, imkanlara Almaniya biznesi tərəfindən böyük diqqətin şahidi oldum. O cümlədən bərpaolunan enerji növlərinin birgə işlənməsi və istismarı istiqamətində çox gözəl imkanlar var, bu barədə də bu gün biz fikir mübadiləsi apardıq. Əminəm ki, gələcəkdə Azərbaycan Avropaya təkcə təbii qaz yox, yaşıl enerjini də ixrac edən ölkəyə çevriləcəkdir", – deyə İlham Əliyev əlavə edib.

Prezident mətbuat konfransında bu mövzuda suala cavab olaraq bildirib ki, Rusiya-Ukrayna müharibəsindən sonra Azərbaycana Avropanın 10-a yaxın ölkəsindən qaz təchizatı ilə bağlı sifarişlər gəlib. Dövlət başçısı qeyd edib ki, Avropa İttifaqı ilə 2022-ci ildə imzalanan memoranduma əsasən, Azərbaycan 2027-ci ilə qədər 20 milyard kubmetr təbii qazı Avropa məkanına çatdırmağı planlaşdırır. Hazırda Azərbaycan qazı Türkiyə, Gürcüstan, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılır. Bu ildən Rumıniyaya çatdırılmağa başlanıb. Bu ilin sonunda Macarıstana ilk qaz təchizatını həyata keçirmək fikrindəyik. Albaniyaya ixracı təmin etmək üçün danışıqlara başlamışıq. Bundan əlavə, Çexiya, Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya da Azərbaycandan qaz idxal etmək istəyir. Avropada ölkələr arasında daha çox interkonnektor olarsa, bizim qaz ixracat coğrafiyası da genişləndirilə bilər.

## Ölkəmizin turizm imkanları Moskva və Vyanada təbliğ edilir

Ölkəmizin turizm imkanları Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Moskvada 16-18 mart tarixlərində keçirilən "MITT – 2023" Beynəlxalq Səyahət və Turizm Sərgisində təbliğ edilir.

Milli stendimizdə ölkəmizi "Azərbaycan Hava Yolları" QSC, "Şahdağ" Turizm Mərkəzi, Dağ Yəhudiləri Muzeyi, Abşeron Hotel Qrupu ilə birlikdə 8 yerli turizm sənayesi nümayəndəsi təmsil edir. Ziyarətçilərə Azərbaycanın tarixi, mədəni irsi, milli mətbəx nümunələri, dağ-xizək mərkəzləri, şərabçılıq, sağlamlıq, dağ və qış turizmi imkanları, eləcə də ölkəmizdəki qədim yəhudi irsi haqqında ətraflı məlumat verilir. Digər ölkələri təmsil edən turizm sənayesi nümayəndələri ilə B2B formatlı görüşlər keçirilir.




Qeyd edək ki, 2023-cü ilin yanvar-fevral aylarında Azərbaycana səfər edən Rusiya vətəndaşlarının sayı 75 mini keçib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 51 faiz çoxdur.

Bu il "MITT – 2023" sərgisinə 24 xarici ölkə qatılıb.

***

Martın 16-da Vyanada koronavirus pandemiyası ilə əlaqədar fasilədən sonra beynəlxalq tətil yarmarkası – "Ferien-Messe Wien" yenidən qapılarını səyahətsevərlər üçün açıb. 44-cü dəfə keçirilən Avstriyanın ən böyük yarmarkasında Azərbaycan da öz guşəsi ilə təmsil olunur.

Azərbaycanın Avstriyadakı Səfirliyinin təşkilatçılığı, Azərbaycan Turizm Bürosu və Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə qurulan guşədə müxtəlif regionlarımızla yanaşı, Qarabağ və Şuşa haqqında materiallar da təqdim edilir. Bu il turizm yarmarkası Novruz bayramı ərəfəsinə təsadüf etdiyinə görə ziyarətçilərə Novruz atributları, milli şirniyyat və suvenirlər təqdim olunur.

70-dən artıq ölkənin təmsil olunduğu yarmarka martın 19-dək davam edəcək.

## Qərb mədəniyyətlərində islamofobiyanın qarşısını necə almalı?

İslamofobiyaya qarşı uğurla mübarizə aparmaq üçün, ilk növbədə, gənclərin İslamı yaxşı tanımalarına fürsət və şərait yaradılmalıdır. Bu məqsədlə aparıcı beyin mərkəzləri ilə səmərəli əməkdaşlıq həyata keçirilməlidir.

Bu fikir martın 15-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və G20 Dinlərarası Dialoq Forumunun təşkilatçılığı ilə keçirilən "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfransda vurğulanıb.

Konfrans bu il ilk dəfə qeyd olunan 15 mart – İslamofobiya ilə Mübarizə Gününə həsr olunub.

Beynəlxalq və milli səviyyədə müsəlmanları və ahalisi müsəlman olan ölkələri hədəf alan həyəcanverici tendensiyaları müzakirə etmək üçün akademik platforma yaratmaq məqsədilə keçirilən konfransa 30-dan çox ölkədən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri qatılıb.

Beynəlxalq konfransın sessiyalarından biri "Qərb mədəniyyətlərində müsəlmanlar haqqında konspiroloji nəzəriyyələr: böyük yerdəyişmə nəzəriyyəsi" mövzusuna həsr olunub.

Sivilizasiyaların Mübadilə və Əməkdaşlığı Fondunun təsisçisi və prezidenti Mohamed Başar Arafat (ABŞ), Corctaun Universitetinin müsəlman-xristian anlaşması üzrə Alvaled Mərkəzinin "Körpü təşəbbüsü"nün baş tədqiqatçısı Arsalan İftixar (ABŞ), "Monitor islamofobiya" layihəsinin tədqiqatçısı İneke van der Valk (Niderland) və başqa ekspertlər fikirlərini bölüşüblər.

Qeyd edilib ki, müsəlmanlar əvvəlcə öz aralarında müəyyən məsələlərdə razılığa gəlməlidirlər. Əks halda islamofobiya hallarının gücləndirilməsinin qarşısını almaq mümkün olmayacaq. Bildirib ki, dünyanın bir çox yerində müsəlmanlarla "ikinci dərəcəli" insanlar kimi davranılır. Bəzi ölkələrdə müsəlmanlarla bərabər yəhudilərə qarşı da ayrı-seçkilik nümayiş olunur. Məscidlərə, sinaqoqlara hücumlar törədilir. Avropalılar və digər Qərb ölkələri fikirləşirlər ki, İslam dininin nümayəndələri onların ölkələrinə köçərək gələcəkdə oranı müsəlman etmək niyyətindədir. Müsəlmanlar öz dinini qorumalı, digər dinlərin nümayəndələrinə, gənclərə və gələcək nəsillərə düzgün şəkildə çatdırmalıdırlar. İslamofobiya radikal ideologiyalardan irəli gəlir. Qərbi Avropada artıq 20 ilə yaxındır ki, İslama qarşı müəyyən kampaniyalar təşkil olunur.

15 martın İslamofobiya ilə Mübarizə Günü elan edilməsi ilə bağlı qərar ilk dəfə 2020-ci il noyabrın 27-28-də İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının Niger Respublikasındakı toplantısında elan edilib. 2022-ci il martın 18-də isə BMT Baş Assambleyası bu gün barədə qətnamə qəbul edib. Qətnamədə BMT-yə üzv dövlətlərə islamofobiya ilə mübarizə üçün yerli və beynəlxalq səviyyədə tədbirlər təşkil etmək çağırışı da yer alıb.

Qeyd edək ki, 15 mart 2019-cu ildə Yeni Zelandiyanın Kraystçerç (Christchurch – ingiliscə "Məsihin (İsa) kilsəsi") şəhərində iki məscidə edilən silahlı basqın zamanı 51 nəfər öldürülmüş, 49 nəfər yaralanmışdı. Qırğını törədən avstraliyalı irqçi Brenton Tarrant əməlini etiraf etdi və ömürlük həbsə məhkum edildi. Xristian icmasının çoxluq təşkil etdiyi şəhərdə müsəlmanlara qarşı aşırı nifrət nümunəsi olan qanlı olay dünyada böyük rezonans doğurdu.

# Bəhreynli rəssamın Bakıda "İlk qığılcım"ı

## Heydər Əliyev Mərkəzindəki sərgi altı ay davam edəcək

Martın 14-də Heydər Əliyev Mərkəzində bəhreynli rəssam Şeyx Rəşid əl-Xəlifənin "İlk qığılcım" adlı sərgisinin açılışı keçirildi.



Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov qonaqları salamlayaraq bildirdi ki, sərgi mərkəzin dünya mədəniyyəti nümunələrinin təbliği istiqamətində növbəti layihəsidir: "Çağımızda təsviri sənətin parlaq nümayəndələrindən olan, Bəhreyn Kral ailəsinin üzvü, bu ölkənin Milli İncəsənət Şurasının sədri Şeyx Rəşid əl-Xəlifənin sərgisinin Heydər Əliyev Mərkəzində təşkil olunması əlamətdar hadisədir".

Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov sərginin təşkilini mədəniyyətlərin qovuşmasına töhfə kimi dəyərləndirdi: "Dünyada ayrı-ayrı rəssamlarla görüşmək və onların yaradıcılıq dünyaları ilə tanış olmaq imkanları mənə nəsib olub. Ərəb mədəniyyətinin dünyada özünəməxsus yeri var. Bu, bir rəssam kimi mənim üçün ən yüksək hissləri keçirdiyim sərgidir. Belə bir gözəl sərginin təşkilində əməyi keçən hər kəsə təşəkkür edirəm".



Sərginin kuratorları Stefan Stoyanov və Yasmin Şarabi ekspozisiya haqqında məlumat verdilər. Qeyd edildi ki, sərgidə rəssamın maraqlı əsərləri yer alır. Şeyx Rəşid əl-Xəlifə qədimliklə müasirliyi özündə ehtiva edən əsərlər yaradır. Bu nümunələr gələcəyə işıq salsa belə, keçmişi də yaddan çıxarmır.

Rəşid əl-Xəlifə isə çıxışında Bakının müasir memarlığının ən gözəl nümunəsi olan mərkəzdə fərdi sərgisinin təşkilindən məmnunluğunu ifadə edərək Heydər Əliyev Fonduna təşəkkürünü bildirdi.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov paytaxtımızda belə sərginin təşkilinin əhəmiyyətini qeyd etdi: "Bizim üçün böyük imkandır ki, belə gözəl və möhtəşəm sərgini Heydər Əliyev Mərkəzində təşkil edə bilmişik. Biz gələcəkdə Bəhreyndə gənc heykəltəraş və rəssamlarımızın birgə mübadilə sərgilərinin təşkilinə çalışacağıq. Düşünürəm ki, gənc heykəltəraş və rəssamlarımız da bundan bəhrələnəcək".

Sonra qonaqlar rəssamın abstrakt formalı, metal, alüminium və "qabarıq kətan"la eksperimentlərin üstünlük təşkil etdiyi əl işləri ilə tanış oldular.

Qeyd edək ki, 1952-ci ildə Bəhreyn Kral ailəsində anadan olan Rəşid əl-Xəlifə Böyük Britaniyanın Hastinqs Kollecində incəsənət və dizayn üzrə təhsil alıb. Yaradıcılığa peyzaj rəngkarlığı ilə başlayan rəssamın həyatında və ətrafındakı dəyişikliklər seçdiyi sahəyə də təsir edib. Onun 90-cı illərdəki əsərlərində abstrakt formalar, digər materiallarla, xüsusilə də "qabarıq kətan"la eksperimentlər üstünlük təşkil edib. 2000-ci illərdə isə alüminiumdan istifadə rəssamın yaradıcılığında əhəmiyyətli yer tutmağa başlayır. Hazırda Bəhreyn İncəsənət Şurasının sədri olan rəssam təsis etdiyi "RAK Art" Fondu ilə gənc rəssamlara dəstək verir.

Heydər Əliyev Mərkəzindəki "İlk qığılcım" sərgisi sentyabrın 10-dək davam edəcək.

**Lalə Azəri**

# "Günəşə qovuşmaq istəyirəm mən!"

## Füzuli və Kürdəmir məktəblilərinin konserti



Martın 16-da Kürdəmir Regional Mədəniyyət İdarəsi və Azərbaycan Dövlət Uşaq Filarmoniyasının birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Günəşə qovuşmaq istəyirəm mən!" adlı konsert keçirilib.

Adını Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın "Elegiya" şeirinin misrasından götürən konsertdən öncə filarmoniyanın foyesində uşaqların vətən və yurd sevgisini əks etdirən əl işlərinə baxış keçirilib.

Konsert Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra ilə başlayıb. Hazırda regional idarənin tabeliyində fəaliyyət göstərən Füzuli rayonu uşaq musiqi, incəsənət məktəblərinin və Kürdəmir rayon Uşaq incəsənət məktəbinin şagirdlərindən ibarət ansamblın, xor kollektivlərinin çıxışları, şagirdlərin ifasında səslənən bəstəkar və xalq mahnıları, rəqslər, xarici ölkələrin musiqi nümunələri alqışlarla qarşılanıb.

Ulu öndər Heydər Əliyevin əbədiyaşar müstəqil Azərbaycan sevgisinin, mədəniyyətimizə qayğısının, uşaqlara məhəbbətinin təcəssümü olan konsert proqramının iştirakçıları Azərbaycan musiqisinin xoş gələcəyinin müjdəçiləri olaraq öz ifaçılıq bacarıqlarını nümayiş etdiriblər. Vaxtilə erməni işğalı nəticəsində məcburi köçkünə çevrilmiş ailələrdə doğulmuş iştirakçılar növbəti belə konserti doğma yurdlarında keçirəcəkləri inamı ilə dövlətimizin başçısına minnətdarlıq və sevgilərini musiqi ilə ifadə ediblər.

Tədbirdə Mədəniyyət Nazirliyinin, Azərbaycan Yazıçılar Birliyinin təmsilçiləri, sənət adamları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Muzeylərin Novruz ab-havası

Baharın gəlişini, təbiətin oyanışını, həyatın canlanmasını müjdələyən Novruz xalqımızın sevinc, şadlıq bayramıdır. Bu bayram özündə dünyanın yaranma və yaşam sirlərindən tutmuş, gələcəyə, xoşbəxtliyə, bolluğa ümidini əks etdirir. Bayram münasibətilə paytaxtdakı bir neçə muzeydə müxtəlif tədbir və layihələr həyata keçirilib.





Azərbaycan Milli İncəsənət Muzeyi baharın gəlişini duymaq, əlvan boyaların sehrinə qərq olmaq üçün balacalara "Bahar nəğməsi" adlı tədbir proqramları təqdim edir. İki hissədən ibarət olan proqram Novruz bayramının mənşəyi və adətləri ilə bağlı mühazirə ilə başlayıb, əyləncəli ustad dərsləri ilə davam edəcək. Martın sonunadək proqrama qoşulan balacalar muzeyin binalarını gəzməklə milli-mədəni keçmişimizə səyahət etmiş olacaqlar.

Muzeyin ustad dərslərində iştirak üçün əvvəlcədən qeydiyyatdan keçmək lazımdır.

***

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi tərəfindən Novruzla bağlı maraqlı aksiya keçirilir. Məktəblilərlə bayram üçün ayrılmış zalda tematik dərslər, interaktiv üsullu disputlar təşkil olunur. Burada qədim xalq tamaşaları, aşıq ədəbiyyatı, əmək nəğmələri, "Xan oyunu", "Motal-motal", "Əl üstə kimin əli?", "Uçdu-uçdu", "Dəsmalı ver", "Xəndəyədüşmə", "Dəyirman", "Kosa-kosa", "Qodu-qodu", "Tənbəl qardaş" kimi xalq oyunları və başqa mərasim, mövsüm, qəhrəmanlıq nəğmələri haqqında məktəblilərə ətraflı məlumat verilir. Ekskursiyalar zamanı Azərbaycan şairlərinin Novruzu vəsf edən şeirləri səsləndirilir, Novruz mərasimlərinə aid eksponatlardan bəhs olunur.

Novruzun özəlliyi, xalqın bayramla bağlı mifoloji-bədii dünyagörüşünü əks etdirən ekspozisiya xarici qonaqların da böyük marağına səbəb olur. Muzeydə beş dildə (Azərbaycan, rus, ingilis, ərəb və fars) izahatlar aparılır.

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində uşaqlara bayram ovqatını bəxş etmək məqsədilə ənənəvi "Can gülüm, can-can!" adlı ustad dərsi keçirilib. Əvvəlcə muzeyin ekspozisiyası ilə tanış olan balaca qonaqlara bayramın mənşəyi və ustad dərsinin mahiyyəti barədə qısa məlumat verilib. Sonra balacalar qrup şəklində tapmaca və yanıltmaclar söyləyib, "Yumurta döyüşü", "Kosa-kosa", "Kasa oyunu" və s. xalq oyunlarında iştirak ediblər.

***

Martın 16-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) birgə təşkilatçılığı ilə "Bahar gəlir" adlı konsert keçirilib.

BMA-nın professor-müəllim və tələbələrinin ifalarında Azərbaycan və Qərb bəstəkarlarının əsərlərindən ibarət rəngarəng konsert proqramı davam edib.

***

Milli Azərbaycan Tarixi Muzeyində Novruz bayramına həsr olunmuş uşaqlar üçün "İpək yaylığın nağılı" adlı tədbir keçirilib. Tədbirdə Şövkət Ələkbərova adına 20 nömrəli Musiqi məktəbinin şagirdləri və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin "Səbinə" rəqs qrupunun üzvləri çıxış edib. Uşaqların iştirakı ilə "İpək yaylığın nağılı" adlı dəfilə də təşkil olunub.

***

Azərbaycan Milli Xalça Muzeyinin Uşaq şöbəsi tərəfindən martın 18-də Novruz şənliyi təşkil olunacaq. Uşaqlar üçün nəzərdə tutulan tədbirdə "Məlikməmməd" marionet teatr tamaşasının premyerası olacaq, ustad dərsləri keçiriləcək, əyləncəli proqram təqdim ediləcək.

Sonda onu da qeyd edək ki, bayram tətili günlərində (20-21 mart istisna olmaqla) Mədəniyyət Nazirliyinin tabeliyindəki muzeylər ziyarət üçün açıq olacaq.

**N.Məmmədli**

# Xalqları yaxınlaşdıran dəyər

*əvvəli səh. 1-də*

İslam Əməkdaşlığı Təşkilatına üzv olan ölkələrin Meksikadakı səfirliklərinin təşkilatçılığı ilə paytaxt Mexikoda keçirilən mədəniyyət festivalı da Novruz irsinin təbliği üçün əlamətdar fürsət olub.

Azərbaycanın Meksikadakı Səfirliyindən bildirilib ki, şəhər sakinləri və turistlər arasında populyar olan "Angela Peralta" açıq hava teatrında keçirilən festivalda dulusçuluq, misgərlik, xalçaçılıq kimi əl sənəti nümunələrimiz, milli şirniyyatlarımız da təqdim olunub. Parkda Azərbaycan milli musiqisi səsləndirilib, "İpək Yolu" yerli rəqs qrupu tərəfindən "Tərəkəmə", "Nəlbəki" və s. rəqslərimiz ifa olunub. Qonaqlar Novruz bayramı ilə bağlı adət və ənənələrlə tanış olub, milli mətbəx nümunələrinin dadına baxıblar.

***

Novruz bayramının müjdəçisi olan İlaxır çərşənbə Gürcüstanın paytaxtı Tbilisidə – M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin həyətində təntənə ilə qeyd olunub.

Muzeyin əməkdaşı Leyla Əliyeva, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev Novruz bayramı münasibətilə təbriklərini çatdırıblar.





Tbilisi Şəhər Şurasının sədri Giorgi Tkemaladze çıxış edərək Novruz bayramı şənliyinin iştirakından qürur duyduğunu qeyd edib, Azərbaycanla Gürcüstan arasında mədəni əlaqələrin inkişafından söz açıb. Tbilisi şəhər merinin müavini Kaxa Guledani Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib, xoş arzularını çatdırıb.

Bayram tədbiri rəqs nömrələri və mahnılarla davam etdirilib. Qonaqlar Novruz şirniyyatları və çay süfrəsinə qonaq edilib.

# Mədəniyyət Nazirliyinin yaradıcılıq təşkilatları ilə əməkdaşlığı müzakirə olunub

Xəbər verdiyimiz kimi, mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimli ölkənin yaradıcılıq təşkilatları ilə görüşlər keçirir.



Adil Kərimli 10 mart – Milli Teatr Günündə Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) olub. Əlamətdar günlə əlaqədar teatr xadimlərinə xoş arzularını çatdıran mədəniyyət nazirinin birinci müavini ATXİ-nin binası ilə tanış olub, qurumun fəaliyyəti ilə maraqlanıb. Müasir teatr prosesləri, bu sahədəki çətinliklərin aradan qaldırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Mədəniyyət naziri vəzifəsini icra edən Adil Kərimli martın 10-da Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) da görüş keçirib.

Adil Kərimli mədəniyyətimizin dayanıqlı inkişafı məqsədilə həyata keçirilən islahatlardan danışıb, görüşün əsas məqsədinin qurumun rəhbərliyi ilə fikir mübadiləsi aparmaq, sahə üzrə təklifləri dinləmək olduğunu bildirib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin mədəniyyət sahəsinin inkişaf etdirilməsi istiqamətindəki tapşırıqlarına uyğun olaraq yeni strategiya hazırlanır. Buna uyğun olaraq yeni forma və struktur mexanizmləri yaradılacaq. Qeyd olunub ki, milli-mənəvi dəyərlər, mədəni irsimizə münasibətdə müəyyən boşluqlar var. Bu baxımdan peşəkar, yaradıcı sahələrə dəstək verilməlidir və ölkədəki yaradıcılıq təşkilatlarının əməkdaşlığı önəmlidir.

ABİ-nin sədri Xalq artisti Firəngiz Əlizadə qurumun fəaliyyəti barədə məlumat verib. İttifaqın üzvləri bəstəkarlıq sahəsində problemlər, bu sahənin inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşüblər.

Xatırladaq ki, mədəniyyət naziri vəzifəsini icra edən Adil Kərimli martın 2-də Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyi ilə görüşmüşdü.

# "Yeni adlar" layihəsində violin və kamança axşamı

Mədəniyyət Nazirliyinin ötən ilin yazından həyata keçirdiyi "Yeni adlar" layihəsi davam edir. Müasir Azərbaycan ifaçılıq sənətinin inkişafına, bu sahədə yeni istedadlı nəslin tanınmasına, parlaq ifaçıların yetişməsinə xidmət edən layihə bu il Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunub.

Martın 14-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında layihənin növbəti konserti keçirildi.

Musiqi axşamının tamaşaçıları arasında Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər və digər qonaqlar iştirak edirdi.

Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor Mustafa Mehmandarov) müşayiəti ilə gənc istedadlar – respublika və beynəlxalq müsabiqələr laureatları Ləman Əsədova (violin) və Hüseyn Nağıyev (kamança) maraqlı proqramla çıxış etdilər.

Ləman Əsədovanın ifasında L.Bethovenin "Violin və orkestr üçün konsert" (re major op.61, 3 hissədə), Hüseyn Nağıyevin təqdimatında isə H.Xanməmmədovun "Kamança və orkestr üçün konsert" əsərləri tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

***



Ləman Əsədova 1999-cu ildə Bakıda anadan olub. 2017-ci ildə violin ixtisası üzrə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini, 2021-ci ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib. Hazırda BMA-nın magistr pilləsində Xalq artisti, professor Zəhra Quliyevanın sinfində təhsilini davam etdirir.

2014-cü ildə Rusiyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə I yerə layiq görülüb. 2015-ci ildə Oryol şəhərində (Rusiya) "Delfi oyunları" beynəlxalq müsabiqəsi və Novosibirskdə gənc ifaçıların P.İ.Çaykovski adına beynəlxalq müsabiqəsində diplom və sertifikatla təltif olunub.

***



Hüseyn Nağıyev 2004-cü ildə Bakıda anadan olub. 2021-ci ildə Azərbaycan Milli Konservatoriyası (AMK) tərkibində İncəsənət Gimnaziyasını kamança sinfi üzrə bitirib. AMK-nın İnstrumental ifaçılıq fakültəsində təhsilini davam etdirir.

2019-cu ildə Uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının IV Respublika müsabiqəsində, 2020-ci ildə "World harmony" III beynəlxalq müsabiqəsində I yerə layiq görülüb. 2019-cu ildə Rusiyada keçirilən XVI "Moskva dostları qarşılayır" festivalında ölkəmizi təmsil edib. Gənc musiqiçi 2021-ci ildən Xalq artisti Malik Mansurovun rəhbərliyi ilə "Naz-nazı" instrumental ansamblında solist kimi fəaliyyət göstərir.

**Nurəddin**

# BXA-da bayram proqramı

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Novruz bayramına həsr olunmuş konsert proqramı keçirilib.

Ədəbi və bədii hissədən ibarət olan bayram tədbirində BXA-nın bakalavr, orta ixtisas təhsili və tam orta təhsil pillələrinin tələbə və şagirdlərinin ifasında şeir və rəqs kompozisiyaları təqdim olunub.

Akademiyanın müəllimlərinin quruluşunda təqdim edilən "Ay ləli", "İgidlər", "Toy rəqsi", "Uzundərə", "Üç meyvə", "Şən rəqs" və bir sıra digər rəqs nümunələri ilə yanaşı, "Keçəl və kosa" səhnəciyi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Tədbirdən sonra akademiyanın şagirdlərinin hazırladığı əl işlərindən ibarət yarmarka təşkil olunub. Sonra iştirakçılar BXA-nın həyətində qalanan tonqal ətrafına, şənliyə dəvət olunublar.

# Yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyəti günün tələblərinə cavab verirmi?

## Ağstafa, Qazax, Tovuz və Şəmkir rayonlarındakı müəssisələrə baxış keçirilib



Regionlarda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iş şəraiti və maddi-texniki bazasının mövcud vəziyyətinin yerində öyrənilməsi məqsədilə mədəniyyət nazirinin birinci müavini, nazir vəzifəsini icra edən Adil Kərimlinin rəhbərliyi ilə Mədəniyyət Nazirliyinin nümayəndə heyəti martın 11-də Ağstafa, Qazax, Tovuz və Şəmkir rayonlarında səfərdə olub.

Ağstafa rayonundakı Heydər Əliyev Mərkəzi, Hüseyn Arif adına şəhər Uşaq musiqi məktəbi, Dövlət Rəsm Qalereyası, rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS), Tarix-Diyarşünaslıq Muzeyi və Mədəniyyət Mərkəzinə baxış keçirilib. Həmçinin rayon Mədəniyyət Mərkəzinin şəhər 1 saylı Folklor klubu, rayon MKS-nin Dağkəsəmən kənd 2 saylı kitabxana filialı və kənd Mədəniyyət evinə baxış olub, yaradılan şəraitdən səmərəli istifadə edilməsi, işin müasir tələblər səviyyəsində qurulmasının vacibliyi diqqətə çatdırılıb.

Qazax rayonuna səfər zamanı Heydər Əliyev Mərkəzi, Ədəbiyyat Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi, MKS, Mədəniyyət Mərkəzi, Qazax Dövlət Dram Teatrı, Dövlət Rəsm Qalereyası, İsrafil ağa hamamı, eləcə də rayondakı bir sıra mədəniyyət müəssisələrinə baxış keçirilib.

Nümayəndə heyəti Qazax Müəllimlər Seminariyasının tarixi binasında fəaliyyət göstərən ADA Universitetinin Qazax Mərkəzinə baş çəkib, təhsil ocağının fəaliyyəti, kompleksdə yaradılmış şəraitlə tanış olub.

Eyni zamanda rayon ərazisindəki "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və Daş Salahlı kəndində yerləşən qoruğun Damcılı filialına da baş çəkilib. Məlumat verilib ki, burada dünya əhəmiyyətli qədim Damcılı mağara düşərgəsi və çox sayda mağaralar yerləşir. Ərazidə ilk dəfə 1953–1957-ci illərdə arxeoloq M.Hüseynov tərəfindən arxeoloji qazıntılar aparılıb və Avey dağında Daş dövrünə aid 30-a yaxın mağara aşkar edilib, buradan iki minə yaxın alət tapılıb. 2015-ci ildə Yaponiyanın Tokio Universiteti Muzeyi, AMEA-nın indiki Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu və "Avey" qoruğu arasında memorandum imzalanıb. Sənədə əsasən, yaponiyalı və azərbaycanlı mütəxəssislər tərəfindən bu ərazilərdə arxeoloji tədqiqatlar davam etdirilir.

Tovuz rayonuna səfər zamanı ilk olaraq bu qəbildən dünyada ilk muzeylərdən olan Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinə baxış keçirilib. Bildirilib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən yaradılan və dövlət başçısının iştirakı ilə istifadəyə verilən müasir standartlara uyğun muzeydə Azərbaycan aşıq sənətinin keçmişini və bugünkü vəziyyətini əks etdirən qiymətli eksponatlar nümayiş olunur.

Sonra Tovuz Dövlət Rəsm Qalereyası, rayon Tarix-Diyarşünaslıq Muzeyi, MKS və 1 nömrəli Qovlar şəhər kitabxana filialı, Heydər Əliyev Mərkəzi, aşıq Əkbər Cəfərov adına rayon Mədəniyyət Mərkəzi, Qovlar şəhər və Düz Qırıqlı kənd folklor evləri, aşıq Əsəd Rzayev adına Uşaq musiqi məktəbi və Qovlar şəhər Uşaq musiqi məktəbi ilə də tanışlıq olub. Qeyd edilib ki, bədii təhsil ocaqları ilə mədəniyyət müəssisələrinin uğurlu əməkdaşlığına nail olunmalı, effektiv birgə fəaliyyətin qurulması diqqətdə saxlanılmalıdır.

Ölkə başçısının tapşırığı ilə yenidən qurulan, müasir standartlara cavab verən Nizami Gəncəvi adına Tovuz rayon Mədəniyyət evinə də baxış olub. Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi və canlandırılması istiqamətində müvafiq tapşırıqlar verilib.

Sonra Şəmkir rayonuna gələn nümayəndə heyəti Əhməd Cavad adına Mədəniyyət Mərkəzi, Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq musiqi məktəbi, Alman Lüteran kilsəsi, MKS və onun Uşaq şöbəsi, Mahir Aslanov adına Düyərli kənd kitabxana filialı, Zəyəm qəsəbə kitabxana filialı və Zəyəm qəsəbə Mədəniyyət evinə baxış keçirib. Müəssisələrin maddi-texniki imkanları, cari vəziyyəti və fəaliyyət istiqamətləri haqqında məlumat verilib.

Qeyd olunan bölgələrə səfər zamanı monitorinq qrupu keçmiş dövrlərdən qalmış, bu günün çağırışlarına cavab verməyən bir sıra infrastruktur obyektlərinə baş çəkib. Heyət tərəfindən qeydlər aparılıb, müvafiq tapşırıqlar verilib.

Musiqi məktəblərinə baxış zamanı müəllim kollektivi və şagirdlərlə görüş olub. Musiqi təhsili ocaqlarında istedadlı, yaradıcı potensiallı uşaqların olduğu müəyyən edilib, onların bacarıqlarının qiymətləndirilməsi və tanıdılmasının vacibliyi diqqətə çatdırılıb.

Bundan əlavə, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi, Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan Uşaq İncəsənət Festivalının nominasiyalar üzrə regionların hansı mədəniyyət müəssisələrində təşkil ediləcəyi də nəzərdən keçirilib.

Müəssisələrdə problemlərin aradan qaldırılması, fəaliyyətin səmərəli təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# Bölgə teatrlarının Novruz səhnəsi

Pandemiyalı üç ildən sonra builki Novruz bayramı günləri bölgələrdə mənalı istirahət üçün də yaxşı fürsətdir. Bu günlərdə yerlərdəki mədəniyyət, sənət ocaqları da yerli turist axınından səmərəli istifadə edib, özlərinin tamaşaçı sayını artıra bilərlər.

Elə isə gəlin görək bölgə teatrlarımız potensial tamaşaçılarının istirahət menyusuna hansı səhnə işlərini daxil ediblər?




Salyan Dövlət Kukla Teatrı bayram münasibətilə "Ələddinin Novruz sərgüzəştləri" adlı tamaşa hazırlayıb. 15-25 mart tarixlərini əhatə edən nümayişlər hər gün 2 seansda olacaq. Tamaşanın quruluşçu rejissoru Laləzər Huseynova, quruluşçu rəssamı Ceyhun Rüstəmbəyli, musiqi tərtibatçısı Elvin İsayevdir.

Lənkəran Dövlət Dram Teatrı Novruz bayramı günlərində kiçikyaşlı tamaşaçılarını yeni səhnə əsəri ilə sevindirəcək. Anar Sadıqovun müəllifi və quruluşçu rejissoru olduğu "Gəl baharım, gəl yazım" adlı birhissəli uşaq tamaşası martın 16-dan 25-dək nümayiş olunacaq. Şən, oynaq musiqilərlə zəngin olan səhnə əsərinin quruluşçu rəssamı Banuçiçək Sadıqova, musiqi tərtibatçısı Miranda Qurbanovadır. Bayram günlərində teatrın cari repertuarından "Yaşayan ölü" (Könül Məmmədova) və "Casus" (Kamal Abdulla) tamaşaları da göstəriləcək.



Mingəçevir Dövlət Dram Teatrı da yeni səhnə işi ərsəyə gətirib. İntiqam Soltanın "Keçəlin kələyi" pyesi əsasında hazırlanan tamaşa 13-23 mart tarixləri arası teatrsevərlərin ixtiyarında olacaq. Xoreoqrafik elementlərlə zəngin uşaq tamaşasının quruluşçu rejissoru İntiqam Soltan, quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulov, rəqslərin quruluşçusu isə Eyvaz Əliyevdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı da bayram günlərində repertuarlarındakı maraqlı tamaşaları nümayiş etdirəcək. Əhməd Qəşəmoğlunun "Qayınana əməliyyatı", Vaqif Səmədoğlunun "Mamoy kişinin yuxuları", Elçinin "Teleskop" və Hüseyn Cavidin "Topal Teymur"u 21-24 mart tarixlərinin tamaşalarıdır. Martın 26-da isə Naxçıvanda qastrolda olan türkiyəli sənətkarlar "Pepe" cizgi filminin qəhrəmanlarının ifasında uşaqlar üçün tamaşa oynayacaqlar.



Qusar Dövlət Ləzgi Dram Teatrı isə "Yurdumuza Novruz gəlir" adlı uşaq tamaşası hazırlayıb. Novruz, Ayı, Tülkü, Canavar, Kosa, Keçəl və Bahar qızı kimi personajların olduğu tamaşada uşaqlara təbiətə sevgi, adət-ənənələrə bağlılıq və böyüklərə hörmət təlqin olunur. Tamaşanın quruluşçu rejissoru Bağır Əhmədov, quruluşçu rəssamı Marina Mahmudova, musiqi tərtibatçısı Şaiq Qardaşovdur. Musiqili tamaşa martın 24-dək nümayiş olunacaq.

# "Yurdumuza bahar gəlir"

Bölgələrdəki mədəniyyət müəssisələrində Torpaq çərşənbəsi və Novruz bayramı münasibətilə müxtəlif tədbirlər keçirilib.

Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin kollektivi Mehdiabad bələdiyyəsi ilə birgə açıq havada bayram konserti təşkil edib. Novruz bayramı ilə bağlı səhnəciklər nümayiş olunub, müəllim və şagirdlərdən ibarət ansamblar xalq və bəstəkar mahnılarını səsləndirib, milli rəqslərimizi ifa edib.

***

Kürdəmir Rayon İcra Hakimiyyəti və rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Torpaq çərşənbəsi ilə bağlı tədbir keçirilib. İcra başçısı Elxan İbrahimov və regional mədəniyyət idarəsinin rəisi Faiq Xudanlının da iştirak etdiyi tədbirdə sənətçilər bahar təravətli mahnılar ifa ediblər.

***

Ağdaş rayon Mədəniyyət Mərkəzinin dəstəyi, Türyançay qəsəbə Sənətkarlıq evinin təşkilatçılığı ilə "Yurdumun Bahar qızı" adlı şənlik keçirilib. Folklor ansamblının, Novruz personajları Kosa və Keçəlin çıxışları maraqla qarşılanıb.

***





Biləsuvar RMİ və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Əsgərabad kəndində Torpaq çərşənbəsinə həsr olunan bayram tədbiri keçirilib. Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonlarından incəsənət ustaları, "Nənələr" folklor qrupu və kəndirbazların çıxışları böyük coşqu doğurub.

***

Sabirabad rayon Mədəniyyət Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə Torpaq çərşənbəsi münasibətilə sərgi keçirilib.

Hacıqabul rayon Atbulaq kənd Mədəniyyət evində "Elimizə bahar gəlir" adlı konsert təşkil olunub. Şəhid Namiq Mustafayev adına Kürdçü kənd natamam orta məktəbdə keçirilən "Yaz ətirli Novruzum" adlı tədbirdə şagirdlər bayatılar, sanamalar, deyişmələr söyləyib, rəqs nömrələri təqdim ediblər.

***

Ağstafa rayon MKS, Tarix-Diyarşünaslıq Muzeyi, 1 saylı Folklor klubu və H.Arifin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə "Novruz dirçəliş və sevgi bayramıdır" adlı tədbir keçirilib. Məktəblilər Novruza aid mahnılar oxuyub, şeirlər söyləyib, səhnəciklər təqdim ediblər. Bayram tonqalı ətrafında "Yallı" rəqsi ifa olunub.

***

Ağcabədi rayon Mərkəzi Kitabxanasının əməkdaşları şəhər 2 saylı tam orta məktəbin şagirdləri ilə birlikdə Novruzla bağlı sərgilər hazırlayıb, bayram tədbiri təşkil ediblər. Şagirdlər şeirlər söyləyib, xalq oyunlarını təqdim ediblər.






Ağsu rayon Mədəniyyət Mərkəzi tərəfindən rayonun Yenilik kəndində "Torpaq müqəddəsdir" adlı konsert proqramı təşkil edilib. Kosa ilə Keçəlin macəraları, "Qönçə" xalq çalğı alətləri ansamblının ifasında mahnılar kənd sakinlərində xoş ovqat yaradıb.

***

Masallı Tarix-Diyarşünaslıq Muzeyində Torpaq çərşənbəsi münasibətilə "Yazın ətri gəlir" adlı tədbir keçirilib. Tədbirdə uşaqlar rəqs edib, şeirlər söyləyib, muzeydəki eksponatlarla tanış olublar.

***

Şirvan şəhər MKS-nin 3 saylı kitabxana filialı 10 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında şeirlər və mahnılar səsləndirilib.

***

Gəncə şəhər Uşaq incəsənət məktəbinin fortepiano şöbəsində "İlaxır çərşənbə" adlı konsert keçirilib. Novruz bayramının adət-ənənələri haqqında məlumat verilib. Şagirdlərin ifasında musiqi nömrələri təqdim olunub.

Goranboy Dövlət Rəsm Qalereyasında Novruz bayramına həsr olunmuş rəsm sərgisi təşkil edilib.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə "Novruz gəldi, yaz gəldi" adlı tədbir keçirilib. Novruza həsr edilmiş şeirlər, mahnılar səsləndirilib, sərgi və səhnəciklər nümayiş olunub.

***

Şəki RMİ-nin tabeliyində olan müəssisələrin təşkilatçılığı ilə Torpaq çərşənbəsi münasibətilə tədbirlər keçirilib. Bayram tonqalının ətrafında çıxışlar olub, Novruz adətləri nümayiş etdirilib.

***

Tərtərdə Torpaq çərşənbəsi münasibətilə bayram şənliyi təşkil olunub. Şəhərin mərkəzi meydanında keçirilən tədbirdə rayon Mədəniyyət Mərkəzi solistlərinin ifasında konsert proqramı sakinlərin könlünü oxşayıb.

**Hazırladı: N.Məmmədli**

# Bayram ərəfəsində Vətənin qəhrəmanları unudulmur

İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində şəhid leytenant Elnur Səmədovun xatirəsinə həsr olunan "Nur üzlü şəhidim" adlı sənədli film nümayiş etdirilib.

Abşeron rayon Mədəniyyət Mərkəzinin Novxanı kənd Sənətkarlıq klubu və Abşeron rayon MKS-nin 8 saylı Novxanı kənd kitabxana filialının əməkdaşları Vətən müharibəsinin şəhid kapitanı Ceyhun Useynovun ailəsini ziyarət ediblər.

Sumqayıt RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Qarabağ müharibəsi şəhidi Balakişi Hüseynovun (1968-1994) doğum günü münasibətilə tədbir keçirilib. Şəhidə həsr olunmuş videoçarx nümayiş etdirilib, kompozisiya təqdim olunub.

Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidləri leytenant Şükür Hacıyev və əsgər Xalid Hassanın ailəsinə baş çəkiblər.

## "Dünya xəzinəsindəki irsimiz"

# Novruz bayramı: milli və ümumbəşəri miras

Azərbaycan xalqının düşüncəsində, mənəvi dəyərlər sistemində Novruz bayramının xüsusi yeri var. Ayin və adətlərinin izi min illər öncəyə gedib çıxan Novruz bir sıra Şərq ölkələrində yeni ili simvolizə edir. Birləşdirici, əməyə, bərabərliyə çağırış, eyni zamanda təbiətə sevgi kimi anlayışları ehtiva edən bu bayram bəşəriyyətin mirası adını alıb.

UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2009-cu il 28 sentyabr – 2 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən sessiyası zamanı "Novruz" çoxmillətli (Azərbaycan, Hindistan, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) nominasiya kimi "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ siyahısı"na daxil edilib. Hökumətlərarası Komitənin 2016-cı ildə Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilən 11-ci sessiyasında Əfqanıstan, İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan da bu nominasiyaya qoşulub.

Novruzla bağlı daha bir mühüm qərar 2010-cu ildə qəbul olunub. BMT Baş Assambleyası tərəfindən həmin il 21 mart tarixi "Beynəlxalq Novruz Günü" elan edilib. Bununla bağlı qəbul olunan qətnamədə bildirilir ki, "yeni gün" mənası verən, martın 21-də, gecə və gündüzün bərabərləşdiyi gün qeyd olunan Novruz dünyada 300 milyondan çox insan üçün yeni ilin başlanğıcı hesab edilir.

Novruz bayramı ənənə və mərasimləri ilə özündə mədəni-mənəvi zənginliyi ehtiva edir.



Burada həm də milliliklə bəşərilik qoşa addımlayır.

Azərbaycan xalqı Novruzun gəlişinə dörd həftə əvvəldən hazırlaşır. Hər həftənin ikinci günü ardıcıl olaraq Su, Od, Yel və Torpaq çərşənbələri qeyd edilir. Mifik düşüncədə bu dörd anlayışın dünyanın yaranmasında müstəsna əhəmiyyətə malik olduğu bildirilir. Dörd ilaxır çərşənbənin hər birinin özünəməxsus adət və mərasimləri var. Mənbələrdə Novruz bayramının yurdumuzda hər zaman böyük təmtəraqla, coşqu ilə qeyd olunduğu deyilir. Novruzun ən yüksək zirvəsi isə köhnə il öz yerini təzə ilə verəndə olur. XIX əsr rus tarixçisi və hərbi xadimi Nikolay Dubrovin bu haqda yazıb: "Azərbaycanda baharın gəlməsini şəhər və kəndlərdə açılan yaylım atəşləri bildirirdi".

Bu bayramın əsasında təbiətə bağlılıq, onu həmişə canlı görmək istəyi dayanır. Axır çərşənbəyə (Torpaq çərşənbəsi) xüsusi hazırlıq, əslində, elə Novruza hazırlıqdır. Bayram masasında səməni olan xonça qoyulur. Səməninin ətrafına milli şirniyyatlar: paxlava, qoğal, şəkərbura, rənglənmiş yumurta və çərəzlər düzülür. Bayram süfrəsində ailə üzvlərinin sayı qədər şam yandırılır və niyyət edilir. Uşaqlar bayram payı almaq üçün qonşuların qapılarına papaq, torba atırlar.

Novruz bayramı ölkəmizdə aşıq, xanəndə və xalq ifaçılarının iştirakı ilə kütləvi şəkildə qeyd olunur. Bayram mərasimlərinin əsas simvolu olan Kosa, Keçəl və Bahar qızı əyləncəli oyun-səhnəciklər göstərirlər. Kəndirbaz və pəhləvanlar da öz güclərini nümayiş etdirirlər. Bir sözlə, qışın çətinliklərini arxada qoyub yaza çıxan insanlar bunu çalıb-çağırmaqla, böyük təntənə ilə qeyd edirlər.

Yazın gəlişi, təbiətin oyanması insanın da qurub-yaratmaq həvəsini artırır. Bununla yaz-tarla işlərinə başlanılır, bolluq və bərəkətin təməli qoyulur. Mütərəqqi ideyaların daşıyıcısı olan Novruz bayramı insanlıq var olduqca yaşadılacaq...

**Savalan Fərəcov**

# Özü də canlı tarix...

85 il... Bu qədər illərin kürəyini yerə "vurmaq" hər kəsə nəsib olmur. Özlüyündə canlı tarix olan belə adamların həyatı və xatirələri daim maraqlı, xoş və sözsüz ki, dəyərli olur. Üstəlik, o, ahıl yaşlı məşhur sənət xadimidirsə...

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin martın 14-də Xalq artisti, sevilən sənətkar Rafiq Əzimovun şərəfinə təşkil etdiyi yubiley tədbiri belə unudulmaz və şirin xatirələrlə zəngin idi.

Yubiley axşamına toplaşanlar ömrünü Akademik Milli Dram Teatrına həsr edib, kinofilmlərdən savayı heç vaxt özünü başqa məkanda və səhnədə təsəvvür etməyən Rafiq Əzimov sənətkarlığına vardılar. Tədbir yubilyarın həyat yolu ilə yanaşı çalışdığı teatrın yaxın-uzaq tarixinə də qısa səyahət imkanı idi.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova qonaqları salamlayaraq sənətkarı yubileyi münasibətilə təbrik etdi. Onun milli teatr və kino sənətimizdə ayrıca yerinin olduğunu, klassik aktyor məktəbinin yetirməsi kimi oyun məziyyətlərini qoruyub saxladığını bildirdi.

Ardınca Rafiq Əzimovun sənət dostları, tərəf-müqabilləri – Xalq artistləri Hacı İsmayılov, Əbdül Mahmudov, Əli Nur, Əməkdar artistlər Elşən Rüstəmov, Anar Heybətov, Mətanət Atakişiyeva, Elxan Quliyev aktyoru təbrik etdilər, onunla bir səhnəni bölüşməyin qürurverici olduğunu dedilər. Zaman-zaman xatırladıqları xoş anları, gülüş doğuracaq əhvalatları yubiley tədbirinə toplaşanlarla bölüşdülər.



Rafiq Əzimovun gənc aktyorlara, xüsusən tərəf-müqabillərinə daim həssas yanaşdığını, ən kiçik rol üzərində belə məsuliyyətlə çalışdığını və məhz bu məziyyətlərinə görə yeni nəsil aktyorlara örnək olduğunu dedilər.

Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə yubilyarın filmlərdə yaratdığı fərqli və maraqlı obrazları yada saldı. Onun dramatik aktyor kimi ifa etdiyi rolun bütün xırdalıqlarına nüfuz edə bildiyini, bu işdə onun aktyor cizgiləri və səs tembri ilə yanaşı kinoekran üçün vacib olan cazibətmə keyfiyyətinin də xüsusi rol oynadığını dedi.

Yubiley tədbirində muzeyin fondunda qorunan və aktyorun yaradıcılığını əks etdirən eksponatlardan hazırlanmış videoçarx, həmçinin Rafiq Əzimovun müxtəlif illərdə oynadığı tamaşa və filmlərdən parçalar nümayiş olundu.

Səmimi tədbirə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin xalq və bəstəkar mahnılarından ibarət həzin musiqi nömrələri xüsusi rəng qatdı.

Sonda rəssam Vüsal Tərlanoğlu tərəfindən Rafiq Əzimovun yubileyi münasibətilə çəkilən portret sənətkara hədiyyə olundu.

**Həmidə**

# "Göyün yeddinci qatı" – Əməkdar rəssamın yubiley sərgisi

Azərbaycan Milli Xalça Muzeyində Əməkdar rəssam İnna Kostinanın 60 illiyinə həsr olunan "Göyün yeddinci qatı" adlı fərdi sərgisi açılıb.

Martın 10-da keçirilən açılış mərasimində muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova bildirdi ki, sərgidə müəllifin yaradıcılığının əsas istiqamətini təşkil edən batika sənəti nümunələri – zərif ipək üzərində rəsmlər, eyni zamanda rəngkarlıq əsərləri və instalyasiyalar yer alıb. Diqqətə çatdırdı ki, ekspozisiyada öz fərdi üslubu ilə seçilən rəssamın sirli dünyasını, doğma yurdu Azərbaycana xüsusi bağlılığını əks etdirən 14 əsəri nümayiş etdirilir.




Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru Xalq rəssamı Səlhab Məmmədov, YARAT Müasir İncəsənət Məkanı Sosial və maarifləndirici proqramlar şöbəsinin rəhbəri Ülviyyə Axundova müəllifi təbrik edərək yaradıcılığı ilə bağlı düşüncələrini bölüşdülər.

Rəssamın böyük sevgi və yaradıcılıq məsuliyyəti ilə ərsəyə gətirdiyi əsərlərdən ibarət sərgi həm də inklüziv xarakter daşıyırdı. Burada həmçinin onun görmə qabiliyyəti məhdud insanlar üçün yaratdığı kiçikölçülü rəsmlər – taktil (toxunaraq hissetmə) batika nümunələri sərgilənir və bu eksponatların yanında Brayl əlifbası ilə əsərlərlə bağlı mətnlər yerləşdirilib.

Muzey tərəfindən sərgidə nümayiş olunan əsərlərin kataloqu da çap olunub. Layihənin kuratoru Milli Xalça Muzeyinin direktoru Şirin Məlikovadır.

"Göyün yeddinci qatı" sərgisi aprelin 10-dək davam edəcək.

Qeyd edək ki, Bakıda anadan olan İnna Kostina 1984-cü ildə Moskva Rəssamlıq Məktəbini, 1989-cu ildə isə Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunu bitirib. Azərbaycan Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olan rəssamın əsərləri 30-dan çox ölkədə muzey və qalereyalarda nümayiş etdirilir.

**Lalə**

# Ədəbiyyat və kinoya həsr olunan ömrün səhifələri vərəqləndi

"Hər həyat sonu ölüm olduğu üçün "məğlubiyyət"dir. Amma onu olduğu kimi qəbul edib həyata gülümsəyə bilmək, bax bu, əsl istedaddır" – Rüstəm İbrahimbəyovun (1939-2022) bu sözləri onun qəbirüstü abidəsində yazılıb...

Martın 11-də dünyaca məşhur kinodramaturq və yazıçının vəfatının bir ili tamam oldu. İldönümü ərəfəsində, martın 10-da Fəxri xiyabanda Rüstəm İbrahimbəyovun qəbirüstü abidəsinin (müəllif Aydın Zeynalov) açılışı keçirildi.

Beynəlxalq Muğam Mərkəzində isə Rüstəm İbrahimbəyovun vəfatının ildönümünə həsr olunmuş anım gecəsi keçirildi. Tədbirdə qonaqlara kino xadiminin dostlarının və həmkarlarının xatirələrinin, eləcə də özünün müsahibələrinin yer aldığı "Rüstəm İbrahimbəyov" toplusu da təqdim edildi.

Xalq yazıçıları – Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, birinci katibi Çingiz Abdullayev, Rusiya Rəssamlıq Akademiyasının üzvü,




heykəltəraş Aydın Zeynalov Rüstəm İbrahimbəyovun ədəbiyyat və mədəniyyətə töhfələrini qeyd edərək xatirələrini bölüşdülər.

Qeyd edildi ki, Rüstəm İbrahimbəyov müasir Azərbaycan ədəbiyyatının və kinematoqrafiyasının görkəmli nümayəndələrindən biridir. Çoxşaxəli fəaliyyəti ilə ölkəmizdən kənarda da şöhrət qazanan kinorejissor bədii-estetik fikrin zənginləşməsində mühüm rol oynayaraq yarım əsrdən artıq müddətdə ədəbi-mədəni mühitin inkişafına töhfələr verib. Onun ssenariləri əsasında 40-dan çox bədii və televiziya filmi çəkilib. Mühüm ictimai reallıqlardan bəhs edən bu ekran əsərləri tamaşaçıların yaddaşında dərin iz qoyub, yazıçıya böyük şöhrət qazandırıb.

Anım gecəsində R.İbrahimbəyovun filmlərindən kadrlar, həyat və yaradıcılığının müxtəlif anlarını əks etdirən fotolar nümayiş olundu. Pianoçu Nizami Əliyevin rəhbərlik etdiyi kollektivin, "Qaya" ansamblı və Əməkdar artist Sevda Ələkbərzadənin ifasında filmlərdən musiqi kompozisiyaları səsləndirildi.

Tədbirin sonunda Fatimə və Fuad İbrahimbəyovlar atalarının xatirəsinə göstərilən diqqətə görə tədbirin təşkilatçılarına və qonaqlara ailələri adından minnətdarlıqlarını bildirdilər.

**L.Azəri**

# Kinorejissor Zeynəb Kazımovanın yaradıcılığına retrospektiv baxış



Azərbaycan kinosunun 125 illiyi və "Azərbaycanfilm" kinostudiyasının 100 illiyi münasibətilə Dövlət Film Fondunda "Azərbaycanın sənədli kino salnaməsi" adlı silsilə retrospektiv baxış davam edir.

Budəfəki tədbir Əməkdar incəsənət xadimi, kinorejissor Zeynəb Kazımovanın (1912-1984) yaradıcılığına həsr olunub.

Azərbaycan Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev rejissorun yaradıcılığından, onun 1963-cü ildə çəkdiyi "Axırıncı namaz" filminin Naxçıvan Dövlət Film Fondunun bazasından aşkara çıxarılmasının tarixçəsindən danışıb.

Sonra kinorejissor Zeynəb Kazımovanın "Axırıncı namaz" qısametrajlı bədii (1963) və "Əzim Əzimzadə" (1967) sənədli filmləri nümayiş olunub.

Nümayişdən sonra rejissorun ailə üzvü, Xalq yazıçısı Elmira Axundova, eləcə də Əməkdar incəsənət xadimi, kinoşünas Aydın Kazımzadə, Əməkdar artist, kinorejissor Elxan Qasımov, Xalq rəssamı Məmmədağa Hüseynovun oğlu Qəni Hüseynov Zeynəb Kazımova haqqında xatirələrini bölüşüblər.

# Sumqayıt Dövlət Dram Teatrı 55 yaşını qeyd edib



Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinin tamam olduğu bu günlərdə Sumqayıt Dövlət Dram Teatrı öz yubileyini – 55 yaşını qeyd edir. 12 mart 1968-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə yaradılan teatr bir il sonra, 1969-cu ilin 14 martında "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşası (quruluşçu rejissor Cənnət Səlimova) ilə pərdələrini sənətsevərlərə açıb.

Ötən müddətdə yaradıcı kollektiv zəngin sənət yolu keçib, müxtəlif festivallardan mükafatla qayıdıb. Azərbaycan və dünya dramaturgiyasının bir çox nümunələri bu teatrın səhnəsindən tamaşaçılara çatdırılıb, onlara bədii-estetik zövq bəxş edib.

55 ildən sonra yenə Mirzə Fətəli Axundzadənin məşhur əsərinin qəhrəmanları yubiley axşamında tamaşaçıları salamladılar. Bu dəfə "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasına teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov quruluş verib.

Yubiley tamaşasından öncə teatrın rəhbərliyi, qonaqlar çıxış ediblər. Dövlətin mədəniyyət siyasətində teatrın prioritet istiqamət tutduğu vurğulanıb, Sumqayıt Dövlət Dram Teatrının uğurları sadalanıb.

Firudin Məhərrəmovun maraqlı rejissor traktovkasında təqdim olunan tamaşa alqışlarla qarşılanıb.

Tamaşadan sonra teatrın 55 illiyi münasibətilə Əməkdar artistlər Vidadi Məmmədov, Fəranə Musayeva, aktyorlar Dağlar Rüstəmov və İlham Səfərliyə Azərbaycan Teatr Xadimləri İttifaqının fəxri fərmanları təqdim olunub.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (19)

### 1979-cu il 4 iyun

Azərbaycanda Özbəkistan SSR ədəbiyyat və incəsənət günləri başlanıb. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Özbəkistan nümayəndə heyətini qəbul edib.

### 1979-cu il 16 iyun

Heydər Əliyev Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkar Fikrət Əmirovun "1001 gecə" baletinin tamaşasına baxdıqdan sonra yaradıcı heyətlə görüşüb. Fikrət Əmirovu yeni yaradıcılıq nailiyyətinə görə təbrik edən Heydər Əliyev səhnə əsərini yüksək qiymətləndirib. "1001 gecə" baleti SSRİ Dövlət mükafatına təqdim olundu və 1980-ci ildə mükafata layiq görüldü.

### 1979-cu il 17 iyul

Heydər Əliyev Azərbaycan KP MK-nın plenumunda məruzə ilə çıxış etmişdir. Respublika rəhbəri məruzədə mədəni-maarif işindəki problemləri, kütləvi incəsənət sahəsindəki nöqsanlara xüsusi diqqət ayırıb.

*"...Yaradıcılıq İttifaqlarının ictimai fəaliyyəti, zəhmətkeşlərlə əlaqəsi möhkəmlənmişdir. Məsələn, rəssamların Bərdə rayonundakı kolxoz və sovxozlarda uzun müddət işləməsi buna sübutdur. Respublika rəsm qalereyasındakı sərgidə rəssamların Bərdədən gəlmiş qəhrəmanları ilə görüşü çox maraqlı keçmişdir. Abşeronda, Şamaxıda, Lənkəranda, Naxçıvanda və başqa yerlərdə kənd filarmoniyaları yaratmağı qərara almış respublika Bəstəkarlar İttifaqının təşəbbüsü müdafiə edilməlidir... Sumqayıtda "Azərbaycan Filarmoniyası günü" müvəffəqiyyətlə keçmişdir.*

*Respublikada mənfi hallara qarşı aparılan prinsipial mübarizəni əks etdirən pyeslərin teatrlarımızın səhnəsində tamaşaya qoyulmasını müsbət fakt kimi qeyd etmək lazımdır. Bu fərəhli haldır, çünki belə pyeslər incəsənəti həyata yaxınlaşdırır. Lakin ümumən maraqlı olan bu əsərlərin bəzilərində xeyirin əksinə olaraq şər güvvə müsbət qəhrəmanın mövqeyinə nisbətən son dərəcə geniş və bədii cəhətdən daha inandırıcı verilmişdir, həm də müsbət qəhrəmanın mövqeyi heç də həmişə fəal olmur.*

*Təəssüf ki, bəzi kitablarda, kinofilmlərdə də müsbət qəhrəmanların obrazları bədii cəhətdən öz antipodlarından geri qalır... Oxucularımıza elə qəhrəmanlar lazımdır ki, onlar həyatda, yaradıcı əməkdə, əxlaqımızın antipodlarına qarşı fəal mübarizədə yüksək nümunə ola bilsinlər.*

*1977-ci ilin sentyabrında Azərbaycan KP MK "Respublikada musiqi ifaçılığı sənətinin vəziyyəti və onu daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. O vaxtdan təxminən iki il keçmişdir. Lakin bu mühüm qərar hələlik zəif yerinə yetirilir. Mədəniyyət Nazirliyi (Z.Bağırov), digər təşkilatlar tərəfindən lazımi nəzarətin olmaması nəticəsində Azərbaycan Dövlət Konsert Birliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin bir sıra bədii kollektivlərinin və solistlərinin, xüsusən estrada və vokal instrumental kollektivlərinin professional sənətkarlığı, səhnə və ifaçılıq mədəniyyəti aşağı düşür.*

*Dövlət Kinematoqrafiya Komitəsinin fəaliyyətində nöqsanlar vardır. Kinofilmlərin səviyyəsi aşağı olduğuna görə, kino şəbəkəsi inkişafdan qaldığına görə, zəhmətkeşlərə kino xidmətinin pis təşkilinə görə biz Dövlət Komitəsinin rəhbərliyini dəfələrlə tənqid etmişik. Respublikamız kinoya gələn tamaşaçıların sayına görə xeyli müddətdir ki, ölkədə axırıncı yeri tutur...*

*...Bu gün mədəniyyət ustaları nəsillərinin dəyişməsi kimi mürəkkəb bir proses gedir. Çox vacibdir ki, bu proses itkisiz keçsin. Elə etmək lazımdır ki, yaşlı nəsillərin yaratdığı yaxşı və qiymətli nə varsa, hamısı qayğı ilə gənc nəslə verilsin. Milli mənəvi sərvətlər və ənənələr bundan sonra da inkişaf edib təkmilləşsin.*

*...Tənqid bədii yaradıcılığa ictimai rəyin kəsərli təsir vasitəsidir. Lakin yaradıcılıq ittifaqlarında və idarələrində, respublika mətbuatında müzakirələr zamanı ədəbiyyat və incəsənət əsərləri heç də həmişə lazımi dərinlik və tələbkarlıqla təhlil edilmir. Məsələn, "Ədəbiyyat və incəsənət" qəzetində, digər ədəbi nəşrlərdə, respublika mətbuatında dərc olunan məqalələr və resenziyalar çox vaxt məhz sənətkarlıq cəhətdən axsayır...".*

### 1979-cu il 19 sentyabr

Şamxor (Şəmkir) rayonunun Çardaxlı (indiki Çənlibel) kəndində Əmək və Döyüş Şöhrəti Muzeyi açılıb. Heydər Əliyev mərasimdə çıxış edib.

### 1979-cu il 1 oktyabr

Heydər Əliyev Azərbaycan KP MK-da respublika bəstəkarlarını qəbul edib. Görüşdə musiqi sənətinin inkişafı barədə söhbət açılıb.

***

Yaradıcı insanların fəaliyyəti dövlət tərəfindən qiymətləndirilirdi.

### 1979-cu il 30 iyul

Respublika Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə bir qrup yazıçı və şairə fəxri adlar verilib.

"Xalq yazıçısı" fəxri adı – Əbülhəsən (Əbülhəsən Ələkbərzadə), İmran Qasımov, İlyas Əfəndiyev;

"Əməkdar incəsənət xadimi" – Hüseyn Abbaszadə, Cabir Novruz, Maqsud İbrahimbəyov, İshaq İbrahimov, Əliağa Kürçaylı, Nəbi Xəzri, Fikrət Qoca, Yusif Səmədoğlu;

"Əməkdar mədəniyyət işçisi" – Ələviyyə Babayeva, Vladimir Qafarov, Məmməd Araz.

### 1979-cu il 27 noyabr

Respublikada xoreoqrafiya sənətinin inkişafında xidmətlərinə görə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının quruluşçu baletmeysteri Nelya Nəzirovaya "Əməkdar incəsənət xadimi" fəxri adı verilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№20-21 (1990)
17 mart 2023
www.medeniyyet.az

Fatma Muxtarova – 130

# Milli opera səhnəmizdən keçən təkrarsız sənət ulduzu



Bu il milli opera səhnəmizin ilk qadın ifaçılarından Xalq artisti Fatma Muxtarovanın anadan olmasının 130 illiyidir. Bənzərsiz sənəti ilə yaddaşlarda dərin iz qoyan səhnə xadiminin şöhrəti ölkəmizin hüdudlarından kənara da yayılıb. Yubiley ilində aktrisanın ömür və sənət yoluna nəzər salırıq.

Fəlsəfə doktoru İmran Axundov Fatma Muxtarova haqqında monoqrafiyasında onun həyat yolundan ətraflı söhbət açır. Fatma Muxtarovanın valideynlərini tale indiki Belarus ilə Polşa sərhədində qəsəbələrdən birində rastlaşdırır. Polşa tatarlarından olan 15 yaşlı Sara imkanlı bir yəhudinin evində qulluqçu işləyirdi, Cənubi Azərbaycanın Urmiya şəhərindən olan 19 yaşlı Abbas Rzayev bura gətirdiyi meyvə qurusunu satmaqla məşğul idi. Sara ilə Abbas ilk baxışdan bir-birlərinə aşiq olurlar. Ancaq bu işin baş tutmayacağını hiss edən Abbas Saranı qaçırır. Qızın atası Mustafadan qorxan gənclər bir müddət üzə çıxmırlar. Hər şeyin bir axırı olduğu kimi, bu iş də öz yoluna düşür. Abbas ailə qurduqdan sonra Sara ilə Urmiyaya qayıdır...

26 mart 1893-cü ildə bu ailədə bir qız övladı dünyaya gəlir və adını Fatma qoyurlar. 1896-cı ildə Abbas Rzayev ailəsini də götürüb Rusiyaya gedir. Onlar əvvəlcə Rostovda, sonra isə Sankt-Peterburq şəhərində məskunlaşırlar. Ancaq çox keçmir A.Rzayev xəstələnir, 1901-ci ildə vəfat edir. Atasından Fatmaya ancaq səsi yadigar qalır...

Sara xanım ikinci dəfə Səttar Muxtarov adlı başqa cənublu soydaşımızla ailə qurur. Onlar 1910-cu ildə Saratov şəhərinə köçür. Fatma ailəyə kömək məqsədilə şəhərin küçələrində şarmanka musiqi alətində ifa etməyə məcbur edilir və mahnılar oxuyur. Saratovda “Katya Muxtarova” və ya “Şarmankaçı Katya” kimi tanınır...

Fatma atası ilə bağlı xatirələrində yazıb: “Deyirlər ki, onun güclü qolları, məlahətli və gur bariton səsi olub. Həmişə də yerdə, xalça üzərində əyləşər və tar çala-çala mahnı oxuyarmış. Mənim ilk dəfə yeridiyimi görəndə cibindən bir neçə qızıl sikkə çıxarıb və ayaqlarım altına qoyub. Belə bir qədim adət varmış: körpə böyüyəndə xoşbəxt və zəngin olsun deyə ilk dəfə yeriyəndə ayaqları altına qızıl tökərmişlər...”.

Gözəl və şirin səsli, rus dilində sərbəst danışmağı bacaran balaca Fatma bir parça çörək üçün ağır zəhmətlərə qatlaşır. Sonralar ifaçılığını qarmonun müşayiəti ilə davam etdirir. Yeni-yeni serenadalar, nəğmələr, hətta qədim rus romanslarını özünün “küçə repertuarı”na daxil edir. “Katya” təxəllüsü ilə tanınan müğənni çox keçmir ki, meydan teatrının təmsilçilərinə qoşulur. Bir müddət küçə oyunbazları ilə şəhərləri gəzir. İstedadlı müğənnini təsadüfən “Saratovskaya vedomosti” qəzetinin redaktoru A.Arxangelski də dinləyir. Bu qarabəniz, gözləri nur saçan qızın məlahətli, ecazkar ifasına heyran qalır. O elə həmin gün bu barədə Saratov Konservatoriyasının professoru M.Medvedyevə danışır. Bu iki ziyalının xeyirxahlığı sayəsində o, daha ciddi sənət aləminə qovuşur. Rusiyada vətəndaş müharibəsi illərində Fatma Muxtarova təbliğat-konsert briqadalarının tərkibində çıxış edir.

1920-ci ildən başlayaraq Kazan, Sankt-Peterburq, Kiyev, Xarkov, Odessa və Tiflis opera teatrlarında oxuyur. Avropa və rus klassik sənətkarlarının əsərlərinin füsunkar ifaçısı kimi şöhrət tapır. Bu səbəbdən də tez-tez bir teatrdan başqa bir teatra dəvətlər alır. Lakin Fatma Azərbaycan səhnəsində çıxış etmək arzusunda olur. Bu məqsədlə o, 1923-cü ildə Azərbaycan peşəkar teatrının 50 illiyi ilə bağlı bir təbrik məktubu göndərir: “Gənc Azərbaycan teatrına rus opera səhnəsindəki ilk müsəlman qadından salam! Azərbaycan opera səhnəsində də ilk müsəlman qadın olmaq arzusu ilə yaşayıram”.



F.Muxtarova 1923-cü ildə Bakıya gəlir. İlk çıxışı da “Karmen” operasında olur. Bütün tamaşa boyu onun ifası sürəkli alqışlarla qarşılanır. Həmin vaxt Bakıda olan tanınmış rus rəssamı İ.Brodski opera teatrında C.Bizenin “Karmen” tamaşasına baxır. Karmen rolunu F.Muxtarovanın ifasında dinləyir və bənzərsiz sənətçini dünyanın ən gözəl Karmeni adlandırır. 1928-ci ildə F.Muxtarova daimi yaşamaq üçün Bakıya köçür. Azərbaycan opera səhnəsində bənzərsiz obrazlar yaradır.

Vokal ifaçılığının ən zərif və emosional incəliklərini mənimsəyən F.Muxtarova 1953-cü ilə qədər Azərbaycan Dövlət Opera və Balet Teatrında solist kimi fəaliyyət göstərir. Mütəxəssislər onun sənətindən, yaradıcılığından bəhs edərkən əsas partiyaları bu düzümdə göstərirlər: Marfa və Marina, (“Xovanşina” – Modest Musorqski), Lyubaşa, Bahar (“Çar gəlini” və “Qar qız” – Nikolay Rimski-Korsakov), Amneris, Azuçena, Madalena (“Aida”, “Trubadur” və “Riqoletto” – Cüzeppe Verdi), Dalila (“Samson və Dalila” – Kamil Sen-Sans), Əzra (“Nizami” – Əfrasiyab Bədəlbəyli). Onun yaradıcılığının zirvəsi isə Karmen partiyası olur. Bu partiyanı həm Azərbaycan, həm də rus dillərində bənzərsiz tərzdə oxuyub.

Səksənillik ömrünün 60 ildən çoxunu teatra həsr edən məşhur rejissor N.N.Boqolyubov dünya opera sənətinin ulduzlarından bəhs edərkən azərbaycanlı Fatma Muxtarova haqqında deyib: “Fatma Muxtarova hər şeydən əvvəl alovlu, vulkanik temperament deməkdir. Mən bütün həyatım boyu F.Muxtarova kimi yalnız bir qeyri-adi aktrisa gördüm. Bu, çox illər əvvəl Moskvaya gəlmiş italyan tragiki De Qrasso idi. Fatma Muxtarova kimi o da sadə bir adam və yüksək mədəniyyət sahibi idi. Onun yaradıcılığı da F.Muxtarovanın surətləri kimi çılğın idi. Onların hər ikisinə də təbiət xüsusi bir vergi bağışlayıb: qarşısıalınmaz intuisiya vergisi, ən yüksək həqiqətləri kəşf etmək vergisi”.

Onu da deyək ki, F.Muxtarova müxtəlif opera teatrlarının səhnəsində klassik ifaçılardan Fyodor Şalyapin, Bülbül, Sergey Lemeşev ilə birgə çıxış edib. Solist kimi dünyanın bir sıra konsert salonlarında möhtəşəm çıxışlar edib. Tiflis opera teatrının səhnəsində qazandığı nailiyyətlərə, milli opera sənətimizin inkişafındakı böyük xidmətlərinə görə vokal ustası, opera solisti, 1936-cı ildə “Gürcüstanın Əməkdar artisti”, 1940-cı ildə isə “Azərbaycanın Xalq artisti” fəxri adlarına layiq görülüb. Sənətkar ömrünün ixtiyar çağında, 19 oktyabr 1972-ci ildə Bakıda vəfat edib.

**S.Fərəcov**

## “Primanın irsi” – Qəmər Almaszadə haqqında film nümayiş olunub

Bakı Musiqi Akademiyasının Opera studiyasında ilk azərbaycanlı balerina, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Qəmər Almaszadənin (10.3.1915 – 7.4.2006) doğum gününə və Azərbaycan milli teatrının 150 illiyinə həsr olunmuş “Primanın irsi” sənədli filminin premyerası olub. Görkəmli sənətkar professional səhnəni tərk etdikdən sonra Akademik Opera və Balet Teatrının baş baletmeysteri olub, Bakı Xoreoqrafiya Məktəbinin direktoru işləyib.

Filmin ssenari müəllifi və rejissoru Samir Səmədovdur. Bu onun müəllif işidir.

Sənədli filmdə Qəmər Almaszadənin yetirmələrinin iştirakı ilə müxtəlif illərin nadir kadrları tamaşaçılara təqdim olunub. Qonaqlar arasında yer alan filmin qəhrəmanları milli balet tarixinə qayğıkeş münasibətə görə müəllifə təşəkkürlərini bildiriblər.



Filmdə ilk milli balerina və xoreoqraf Qəmər Almaszadənin yaradıcılığından, onun ən istedadlı tələbələrindən, Azərbaycan baletinin əfsanəvi primalarından söhbət açılır.

Qəmər Almaszadə Azərbaycan bəstəkarlarının əksər baletlərində, o cümlədən Qara Qarayevin “Yeddi gözəl” və Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletlərində ilk dəfə baş partiyaları ifa edib. Azərbaycanda balet məktəbinin inkişafına böyük töhfə verən sənətkar tanınmış ifaçılar nəslini yetişdirib, onlar dünyanın müxtəlif şəhərlərinin səhnələrində çıxış ediblər.

## “Məni taparsınız şeirlərimdə...”

### Cabir Novruzun 90 illik yubileyi ilə bağlı xatirə gecəsi keçirildi

Martın 12-də XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Cabir Novruzun (1933-2002) 90 illik yubileyi tamam oldu. Bu münasibətlə Beynəlxalq Muğam Mərkəzində “Məni taparsınız şeirlərimdə” adlı xatirə gecəsi keçirildi.




Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Xalq yazıçısı Anar çıxış edərək Cabir Novruzun yaradıcılığından, ədəbi qəzet və jurnallarda fəaliyyətindən söz açdı. Dedi ki, şairin yaradıcılığı bədii səviyyəsi, mövzu rəngarəngliyi ilə seçilir, sözlərinə bəstələnmiş çoxsaylı mahnılar musiqisevərlər tərəfindən həmişə böyük rəğbətlə qarşılanır. Cabir Novruzun əsərləri müxtəlif dillərə tərcümə edilib, eyni zamanda onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra qiymətli nümunələri ilə tanış olmaq imkanı qazanıb.

AYB-nin birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev bildirdi ki, Cabir Novruz gəncliyindən başəri hiss və duyğuları özündə ehtiva edən lirik şeirləri ilə şöhrət qazanıb. Onun poeziyası oxucunu düşündürür, həyata düzgün baxış formalaşdırır.

Xatirə gecəsində şairin sağlığında lentə alınan kadrlarda öz ifasında şeirlərindən nümunələr təqdim olundu. Mərhum aktyor, Xalq artisti Əliabbas Qədirovun qiraətində “Cavanlığım” şeirinin lent yazısı alqışlarla qarşılandı.

Milli Konservatoriyanın professoru Abbasqulu Nəcəfzadənin rəhbərliyi ilə “Günaydın” ansamblının müşayiəti ilə Xalq artistləri Gülyanaq Məmmədova, Zaur Rzayev, Əməkdar artist Mətanət İsgəndərli və gənc müğənnilərin ifasında şairin sözlərinə yazılmış mahnılar səsləndi.

Qeyd edək ki, Cabir Novruzun müxtəlif illərdə çap olunmuş “İnsan məhəbbəti”, “İllərin ömrü”, “Bizim əsr”, “Adi həqiqətlər”, “Ey həyat, sən nə qəribəsən?”, “Taleyin töhfələri”, “Bir dünyam var”, “İnsan himnləri”, “Ömür keçir karvan kimi”, “Ulu dünya, heyif sən”, “Özünü qoru, xalqım” və digər kitabları bu gün də maraqla oxunur. Sözlərinə bəstələnən mahnılar (“Məhəbbət”, “Mənim duyğularım”, “Cavanlığım”, “Bulaq suyu, dağ havası”, “Böyüməyə tələsmə”, “Bu nə cür məhəbbətdir?”, “Səsim səsinə öyrəşib”, “Ömür keçir”, “Sən oldun”, “Gecikmiş məhəbbət” və s.) dinləyicinin qəlbinə təravət bəxş etməklə bərabər, düşüncələrə qərq edir.

**Lalə Azəri**

## “Azərbaycan teatrı” latın qrafikasında

Milli teatrşünaslıq məktəbinin banisi, AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor Cəfər Cəfərovun (1914-1973) “Azərbaycan teatrı” monoqrafiyası latın qrafikası ilə nəşr olunub.

Azərbaycan peşəkar teatrının yüzillik tarixinin (1873-1973) müfəssəl elmi mənzərəsini yaradan monoqrafiya milli teatrşünaslığın inkişafında mühüm rol oynayıb. İlk dəfə 1974-cü ildə Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən çap edilən kitab o vaxtdan tədqiqatçıların bu mövzuda ən çox istinad etdiyi mənbə olub.

Kitabın latın qrafikası ilə yenidən nəşrinin məsul redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vidadi Qafarovdur.

Kitabın annotasiyasında qeyd olunduğu kimi, bu gündən baxanda, sözsüz ki, sosializm realizmi cərəyanının hakim kəsildiyi sovet cəmiyyətində və dövründə yazılmış bir əsər kimi Cəfər Cəfərovun “Azərbaycan teatrı” monoqrafiyası da zamanın izlərini özündə daşıyır. Lakin bu da milli mədəniyyətin, o cümlədən, teatr və teatrşünaslıq keçdiyi yolun bir parçası olaraq bizə məxsusdur. Bu baxımdan, kitabın yeni nəşrində əsərin strukturu, dili, üslubu və terminologiyası qorunub saxlanılıb, yalnız bəzi ifadə və faktlarla bağlı müəyyən izahlar verilib.

Kitab Azərbaycan peşəkar teatrının 150 illik yubileyi münasibətilə nəşr olunub.

# Səhnə və ekranların Sofiyası



Bu il görkəmli teatr və kino aktrisası, Xalq artisti Sofiya Bəsirzadənin (1918-2000) anadan olmasının 105 illiyidir. Bu münasibətlə aktrisanın ömür və sənət yolunun bəzi maraqlı məqamlarını oxuculara təqdim edirik.

Sofiya (Sofa) Bəşir qızı Bəsirzadə 1918-ci il fevralın 28-də Kazan quberniyasının Çukan kəndində anadan olub. İki yaşı olanda ailəsi Bakıya köçür, Sofiya paytaxtdakı 3 saylı beynəlmiləl məktəbdə ibtidai təhsil alır. Sonra təhsilini 134 saylı orta məktəbdə davam etdirir.

Səhnə sənətinə maraq göstərən Sofiya yuxarı siniflərdə oxuyanda dram dərnəyinə yazılır. 1936-cı ildə M.F.Axundzadə adına Bakı Teatr Məktəbinə qəbul olunur. Akademik Dram Teatrının tamaşalarında kütləvi səhnələrdə, epizodik rollarda çıxış edir. İstedadı yüksək dəyərləndirilən gənc Sofiya teatrın aktyor truppasına qəbul olunur, rəngarəng obrazlar qalereyası yaradır.

Ömrünün son illərində Bakı Bələdiyyə Teatrında fəaliyyət göstərən aktrisa 1955-ci ildə “Əməkdar artist”, 1974-cü ildə “Xalq artisti” fəxri adlarına layiq görülüb.

### Əmisi Türkiyəyə getməsəydi...

Aktrisanın əsl soyadı Vəzirovadır. Atasının nəsil şəcərəsinə görə səhnəyə ilk addımlarından tamaşaçılar arasında “Bəsirzadə” kimi tanınıb. Bəzi proqram və afişalarda adı “Sofa” kimi də yazılıb. Teatr kollektivində də ona “Sofa xanım” deyə müraciət edilib. Bu barədə aktrisa deyərmiş ki, əmisi o vaxt Türkiyəyə səyahəti zamanı İstanbulda Ayasofya məbədini də ziyarət edib və dünyaya gələn qardaşı qızına “Sofiya” adının verilməsini arzulayıb.

### Hər səhnə əsərində rolu görünürdü...

Görkəmli rejissor Tofiq Kazımov həmişə ona deyirmiş ki, Sofa xanım, hansı əsəri səhnəyə qoymaq istəyirəmsə, orda sənin üçün rol görürəm. T.Kazımov, demək olar ki, bütün tamaşalarında ona rol verib. Aktrisa da, epizodik rol olsa belə, yenə onu yaddaqalan oynayıb. S.Bəsirzadə teatra yeni gəldiyi vaxtda İslam Səfərlinin “Göz həkimi” pyesinin tamaşasında ona İradə rolu tapşırılır. O, obrazı çox yüksək səviyyədə canlandırır və bu rolundakı müvəffəqiyyətinə görə “Əməkdar artist” fəxri adına layiq görülür.



Maraqlı, özünəməxsus jestləri olan aktrisa rejissorun verdiyi mizana mütləq yaradıcı əlavələr edib. Sənətə yeni gələn gənclər ondan nümunə götürüblər.

Ümumilikdə 100-dən çox tamaşada müxtəlif obrazların ifaçısı kimi tanınan Sofiya Bəsirzadənin sənəti tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Aktrisanın oynadığı Nisə xanım (“Lənkəran xanının vəziri” – M.F.Axundzadə), Sevər, Gülgün, Gülsabah, Gülnisə (“Oqtay Eloğlu”, “Od gəlini”, “Yaşar”, “Solğun çiçəklər” – C.Cabbarlı), Nina, Rübabə (“Şeyx Sənan”, “Səyavuş” – H.Cavid), Tərlan xanım (“Yalan” – S.Rəhman), Qlumova (“Müdriklər” – A.Ostrovski), Anna Dmitriyevna (“Canlı meyit” – L.Tolstoy), Səadət xanım (“Unuda bilmirəm” – İ.Əfəndiyev), Nihal (“Qəribə adam” – N.Hikmət), Aliyə (“Təhminə və Zaur” – Anar), Mariya Antonovna (“Müfəttiş” – N.Qoqol) və digər rollar ifadə vasitələrinin zənginliyi ilə diqqəti cəlb edib.

### “Yeni horizont”dan başlanan ekran yolu

Kinoda ilk dəfə görkəmli kinorejissor Ağarza Quliyevin (Qriqori Braginski ilə birgə) quruluş verdiyi “Yeni horizont” (1940) filmində Validə rolu olub. Film Bakı neftçilərinin həyatından, onların yeni neft yataqları kəşf etmələrindən bəhs edir. Filmdəki kəskin konflikt elm aləmində cürətli yenilikçi fikri ilə köhnəliyin qalıqları olan ətalət, mühafizəkarlıq və ehkamçılığın təzadları üzərində qurulub. Aktrisa daha sonra “Qara daşlar” (1956) filmində Lalə, “Şərikli çörək”də (1969) Roza, “Var olun, qızlar!”da (1972) Səkinə xanım, “Dədə Qorqud”da (1975) dayə, “Mən nəğmə qoşuram” filmində (1979) Abdullanın yoldaşı, “Yol əhvalatı”nda (1980) Sona nənə və başqa yaddaqalan rollar yaradıb.

### Yeni ilin 4-cü günü...

Bir gün aktrisa mədəsində ağrılar hiss edir. Oğlanları tez təcili yardım çağırırlar. Həkim aktrisanın vəziyyətinin ağır olduğunu, çox yaşamayacağını söyləyir və məsləhət görür ki, o, sanatoriyada dincəlsin. Həkimin tövsiyəsi yerinə yetirilir. Bir müddət sonra aktrisanın səhhəti ağırlaşır. 1999-cu il dekabrın 31-də aktrisa övladlarını başına yığır, onların kədərlənməməsi üçün deyib-gülür. Hətta zarafatla “Bir gün gələn bir gün getməlidir”, – deyə ailədə öncədən psixoloji hazırlıq da aparır...

Aktrisa 2000-ci il yanvarın 4-də Bakıda gözlərini əbədi yumur. Onun Fəxri xiyabanda dəfn edilməsi üçün yer ayrılsa da, öz vəsiyyətinə uyğun olaraq, erkən dünyadan köçən həyat yoldaşının məzarı yanında dəfn edilir.

**Hazırladı: N.Məmmədli**

# “Ortaq mədəniyyətimizi qarşılıqlı tədqiq və təbliğ etməliyik”

## Eldor Şermanov: “Azərbaycanda tədris olunan bir sıra ixtisasların institutumuzda olmasını istərdim”

Xəbər verdiyimiz kimi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutunun rektoru Eldor Şermanovun rəhbərlik etdiyi nümayəndə heyəti bu günlərdə (23-28 fevral) ölkəmizdə olub. Eldor Şermanovun səfər təəssüratını öyrəndik.

*– Deyəsən, ölkəmizə – Bakıya ilk dəfə səfər edirsiniz...*

– Bəli, bu mənim və heyətimizin Bakıya ilk səfəridir. Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə institutumuzun bir qrup əməkdaşı ilə Bakıya gəlmişik. Təəssüratımız çox zəngindir.

*– Bir sıra ali təhsil ocaqları və AMEA-da görüşlər keçirdiniz. Gələcək əməkdaşlıq üçün hansı perspektivlər var?*

– Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə qarşılıqlı əməkdaşlıq memorandumu imzaladıq. Digər universitetlərdə də görüşlərimiz, qarşılıqlı əlaqələrlə bağlı müzakirələrimiz oldu. Bizim üçün əsas mədəniyyət və incəsənət sahəsi ilə məşğul olan müəssisələrlə tanış olmaq idi. Azərbaycan Dillər Universitetində 2023-cü ildə Özbəkistan Mədəniyyət Mərkəzinin açılması nəzərdə tutulub. Bizim universitetdə də Azərbaycan Mədəniyyət Mərkəzi yaradılıb. Onun fəaliyyətini daha da dinamik şəkildə davam etdirməsini istəyirik.

*– Azərbaycan Milli Elmlər Akademiyası ilə hansı sahədə əməkdaşlıq edəcəksiniz?*

– AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ilə görüşdük. Bir çox vacib sahələrdə əməkdaşlığımız mümkündür. Qarşılıqlı olaraq elm adamlarının görüşlərini təşkil etmək və mübadilə həyata keçirməyi qərarlaşdırdıq.



*– Universitetinizin tədris sistemi ilə bizim təhsil ocaqlarının fəaliyyəti arasında hansı fərqlər var?*

– Bizim universitetdə bakalavr üzrə 28 ixtisas, magistratura üzrə 19 istiqamət var. İncəsənətin, demək olar ki, bütün sahələri tədris olunur. Azərbaycanda tədris olunub bizdə tədrisə salınmayan sahələr var ki, gələcəkdə bu sahələri də öz universitetimizdə görmək istərdim. Məsələn, sizdə teatr rəssamlığı var, turizm menecmenti kimi ixtisaslar tədris olunur. Bu istiqamətləri öz institutumuzda tətbiq etmək fikrindəyəm. Qarşılıqlı əməkdaşlıq sahəsində bu sahələr üzrə sizin müəllim heyətinin bizdə tədrisini reallaşdırmaq arzusundayıq.

*– Amma Özbəkistanda ümumi rəssamlıq təhsili var...*

– Bəli, Daşkənd Dövlət Rəssamlıq və Dizayn İnstitutu var. Biz öz təhsil müəssisəmizdə teatr və kino rəssamlığını açmaq istərdik. Azərbaycanın bu təcrübəsini tətbiq etmək işin xeyrinə olar.

*– Bundan əvvəl təhsillə bağlı əməkdaşlığın səviyyəsi necə idi?*

– Əlaqələr vardı, amma çox zəif idi. Bu gün Azərbaycan və Özbəkistan arasında digər sahələrlə yanaşı mədəniyyət sahəsində də əlaqələri ən yüksək səviyyəyə qaldırmalıyıq. İnanıram ki, bundan sonra bu münasibətlər daha da inkişaf edəcək. Qarşılıqlı olaraq ayda dörd tələbə və dörd professor mübadilə edəcəyik. Düşünürəm ki, bu da təcrübə mübadiləsi baxımından mühüm addım olacaq.

*– Azərbaycandan ilk olaraq kim nəzərdə tutulub?*

– Tanınmış kinorejissor Oqtay Mirqasımovla razılıq əldə edildi. O, aprel ayında bizim institutda dərs keçəcək.

*– Birgə layihələr nəzərdə tutulub?*

– May ayında Daşkənddə türk dövlətlərindən tələbələrin teatr tamaşalarından ibarət festival təşkil olunacaq. Festivalda iştirak üçün Azərbaycanda memorandum imzaladığımız bütün təhsil müəssisələrinə dəvətnamə göndərəcəyik. Festival TÜRKSOY-un təşəbbüsü ilə keçiriləcək. Bundan əlavə, tələbələrin iştirakı ilə kinofestival da təşkil edəcəyik.

*– Azərbaycanla hansı sahədə əməkdaşlığa daha çox ehtiyac var?*

– Düşünürəm ki, etnoqrafiya sahəsinə, folklorumuzun araşdırılmasına böyük ehtiyac var. Azərbaycanla bağlı Özbəkistanda dissertasiya müdafiə edənlər azdır, eləcə də əksinə. Ölkələrimizin etnoqrafiyası, folkloru, qədim muğam sənəti, rəqslər sahəsində qarşılıqlı tədqiqatlar çox vacibdir.

*– Söhbətin əvvəlində “Bakı bizi təəccübləndirib” dediniz. Paytaxtımız haqqında təəssüratınız necədir?*

– Dənizkənarı Milli Parkda olduq. Həm orta nəsil, həm də gənclərdə vətənpərvərlik duyğusunu gördük. Təəccüb etdiyim və Özbəkistanda da bölüşmək istədiyim məqam isə bu məkanlarda Üzeyir bəyin musiqisinin, muğam musiqilərinin səsləndirilməsidir. Bu, çox qürurverici haldır. Ölkə öz mədəniyyətini, musiqisini təbliğ edir. Həmçinin Beynəlxalq Muğam Mərkəzi bizdə böyük təəssürat yaratdı. Şəhərin görkəmli yerində belə bir mərkəzin olması könülaçan mənzərədir. Ümumiyyətlə, mədəniyyətimiz birdir, dillərimiz yaxındır. Həm keçirdiyimiz görüşlərdə, həm də şəhərdə gəzərkən çox böyük sevgi ilə qarşılandıq.

**Lalə Azəri**

# Əgər problemi mənəviyyat çözə bilmirsə...

## “Yuğ”un “Şəbədə”sindən yadda qalanlar





Azərbaycan Dövlət Yuğ Teatrının ″Şəbədə″ tamaşası nümayiş olundu. Böyük mütəfəkkir, millət fədaisi, dramaturq Mirzə Fətəli Axundzadənin ″Mürafiə vəkillərinin hekayəti″ (1855) pyesi əsasında hazırlanan səhnə əsərinə ″Yuğ″ məktəbinə sadiq rejissorlardan Gümrah Ömər quruluş verib. Birhissəli mərhəmətsizlik aktının (bu təyin tamaşa boyu özünü tam şəkildə doğrultdu) quruluşçu rəssamı Umay Həsənova, rejissor assistenti Məryəm Qələndərlidir.

...“Şəbədə” kəlməsi rişxənd, ələ salmaq, araya qoymaq kimi mənaları ifadə edir. “Yuğ”dakı “Şəbədə” isə, hər şeydən öncə, bir tamaşaçı kimi məni Vaqif İbrahimoğlu (ruhu şad olsun) zamanına aparmaq istədi. Təkcə bu cəhdə görə yaradıcı heyətə – Xalq artisti Vidadi Həsənova (Ağa Mərdan), aktyorlar Elgün Həmidov (Ağa Salman), Vüqar Hacıyev (Ağa Abbas, Hacı Rəcəbəli), Amid Qasımov (Ağa Kərim), Elçin Əmirov (Əziz bəy), Mətanət Abbas (Zübeydə), Ləman Mərrih (Səkinə) və Günəş Mehdizadəyə (Zeynəb) təşəkkür düşür.

“Mənəviyyatın çözə bilmədiyini heç bir ədalət məhkəməsi çözə bilməz!” ideyalı səhnə işi xurafat və geriliyin bütün zaman və məkanlarda istənilən dəyərə zərbə olduğuna işarə edir.

Məlum olduğu kimi, “Mürafiə vəkillərinin hekayəti”ndə süjetin əsasında ictimai-siyasi, iqtisadi münasibətlərin və müxtəlif xarakterlər arasındakı toqquşmaların, ziddiyyətlərin, münaqişələrin mahiyyətinə varmaq təşkil edir. Axundzadənin bu komediyasının qəhrəmanları Səkinə xanım və Ağa Mərdandır. Onlar şəxsi mənfəətləri və məqsədləri uğrunda çarpışır, hər ikisi rəqiblərinə qalib gəlmək üçün qarşılarına çıxan maneələri yox etmək istəyirlər. Səkinə xanım çətinlikləri aradan götürmək üçün ədalətin gücünə arxalanırsa, Ağa Mərdan, əksinə, riyakarlığa, fitnə-fəsada, hiyləyə, yalana güvənir. Əsər və onun bu səhnə həllində diqqətçəkən əsas məqam tüfeylilərin yaramazlığının komediyanın əsas qəhrəmanı Səkinə xanım surəti vasitəsilə ifşasıdır ki, dramaturq burada haqlı və həm də ağıllı (bir qədər də hiyləgər) qadını problemlərin mərkəzinə gətirir. Diqqət eləsək, ədəbiyyatımızda qadın obrazının bu cür təqdimatı əsasən arxa planda olduğunu görərik.

Burada biz feodal dünyasında gənc və hüquqsuz bir qızın məhkəməyə işi düşməsi, hüquq qayda-qanunları ilə tanışlığı, məmurlarla rəftarı, öz hüququnu müdafiə etməyi bacarması köhnəliyə qarşı açıq mübarizə aparması müsbət, lap görünməmiş hadisədir. Rejissor da bu maraqlı detal üzərindən uğurlu cəhdlərlə səhnə işinin əsas ideyasına başqa bir don “geyindirə” bilib...

Əsərin süjeti dələduzlar tərəfindən mərhum Hacı Qafurun mirasının ələ keçirilməsi üzərində qurulub. Bu mirasa yiyələnmək üçün çox planlar qurulur, yalanlar uydurulur, kələklər işlənir, məhkəmə prosesində çox adamlar ifşa olunur, layiqli cavablarını alır, nəhayət, doğruluq, ədalət zəfər çalır.

Rejissor tamaşaçını məsələylə qısa tanış edir və yükü obrazlar arasında tam bərabər bölür. Biz hadisələrin cərəyan etdiyi Cənubi Azərbaycana vurğunu hər hansı tərtibat və ya geyimdə yox, sadəcə, şivədə və plastik elementlərdə görürük. Sözsüz ki, bundan xoşhal oluruq. Ümumən, tamaşanın izafi dekordan (əslində, heç məkan da buna imkan vermir) azad olunması sayəsində biz aktyorun birbaşa təmasını görür və onun qəhrəmanı ilə münasibətinə hansı aspektdən baxıb-baxdırdığına əyani şahidlik edirik.

Tamaşada iki qadın arasındakı miras davası ətrafında dövrə vuran kişilər – vəkildən yalançı şahidə hamının bir məramı var – qamarlamaq. Burada müqəddəs heç nə qalmayıb. Heç gənc Səkinəyə aşiq Əziz bəy də məsum deyil. Yoğurub yapmadan hazır kökə tapacaq. Özü də gənc qızın əli ilə. Qıza elçi düşən çoxdur. Bibi də hər vəchlə subay qardaşı qızını əldən “çıxarmaq” dərdindədir. Bibi yaşlı elçiyə söz verib ki, Səkinəni ona yar edəcək. Təbii ki, tacir də onun gözünü-könlünü doyuracaq. Zeynəbin də, qardaşının da ayrı azarı var. İllərdi xəsis tacirə arvadlıq edib, bir uşaq doğa bilməsə də, hesab edir ki, miras məhz onun haqqıdır və bu uydurma haqq üçün bacı-qardaş bir-birini gözüyumulu güdaza verə bilərlər.

Səhnə əsərində biz iki qütbə bölünən obrazlar arasında lirik-dramatik qəhrəmanlardan daha çox mənfəət güdən, məkrli tipləri görürük. Bu mənada yalançı şahidlər, rüşvətxor vəkillər, vicdanını çoxdan qəpik-quruşa satan məhkəmə hakimləri xirtdəyə çıxıb... Səkinə inadkar və məqsədli olsa da, Zeynəb bir məqsəd üçün hər şeyə “hə” deyə bilən, ağıllı görünməyə çalışan kütbeyindir. Ortada bir də hər iki tərəfin vəkillərini pulla ələ alıb, bütün mirasa sahiblənmək istəyən Ağa Mərdan var... Qısacası, biz naqolay yollarla da olsa, xeyirin şər üzərində klassik qələbəsinə ekssentrik yolla getdik...

İndi gələk rejissorun duyum və təqdimatına. Axundzadənin komediyası bayağılığı, daha doğrusu, lağlağını sevmir və biz tamaşa zamanı bəzi hissələrdə bunun lap əndazədən çıxdığını gördük. Güldükmü? Əlbəttə. Amma böyük Mirzə bizdən bunumu istəyirdi deyə düşünəndə birmənalı yox deyəcəm. Ola bilər ki, heç bu rejissorun da istəyi olmasın və aktyorlar improvizə ilə bu oyuna başqa bir yanaşma qatmaq istəsinlər. Bu da qəbul olunandır. Çünki improvizə bacarmayan aktyorun səhnədə yeri yoxdur. Əlalxüsus o “yuğ” poetikasında və üslubunda oyunünsiyyətdədirsə. Amma yenə də deyirəm, Mirzə Fətəlinin qəhrəmanları nə qədər rəzil, axmaq, kütbeyin olsalar da, hər birinin bəraəti və sözsüz ki, onu müdafiə imkanları var. Məhz burada söz və əməl mütləq bərabər bölünür.

Əməl demişkən, tamaşanın plastik həllinə diqqət yetirək. Aktyorların dar macal və məkanda hərəkət inikası ehtiras yaratmağa hesablandığı üçün oyunları statik alınmışdı. Bu da, sözsüz ki, sönük təəssürat yaratdı. Xüsusən Ləman Mərrih və tamaşaya (məkana) inteqrasiya edə bilməyən Günəş Mehdizadə bunun üçün xeyli səy göstərdilər.

Rejissor əsərdən irəli gələrək qadın qəhrəmanları nə qədər ön plana çəksə də, Amid-Elgün-Vüqar üçlüyü buna mane oldu.

Bu arada “Yuğ”da ilk dəfə gördüyüm gənc aşiq Əziz bəy rolunun ifaçısı Elçin Əmirov yaxşı təsir bağışladı və rolunun öhdəsindən məharətlə gəldi. Bunu həyəcanını asanlıqla ram etməyindən də sezmək olardı.

Vidadi Həsənovun Ağa Mərdanı rəzil və bir o qədər də vicdansız olsa da, tamaşaçı ona nifrət etmir. Çünki ali məqsədləri arasındakı pul və qadınlar özü onu axtarıb tapırlar. Vidadi müəllimin özündən gənc həmkarlarına inad plastikası və çevik manevrləri baxımlı, inandırıcı idi.

Sadəcə, tamaşada ara söz-söhbətlərdən “bəhrələnmə”nin dialoqlara, monoloqlara, oyun və hərəkətlərə köçürülməsi bir az çox idi və tamaşaçını, əslində, dramatik situasiyadan ani gülüşə çəkib aparırdı...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi
### 14-20 mart

**14 mart 1919** – Satirik şair Əliqulu Qəmküsar (Əliqulu Məşədi Ələkbər oğlu Nəcəfov; 1880, Naxçıvan – 1919) Tiflisdə qətlə yetirilib. “Molla Nəsrəddin” jurnalının tanınmış müəlliflərindən olub.

**14 mart 1936** – Yazıçı-dramaturq Nahid Rəhim oğlu Hacızadə (1936-2018) Gədəbəy rayonunun Düzrəsullu kəndində doğulub.

**14 mart 1938** – Ədəbiyyatşünas, professor Samət Qüdrət oğlu Əlizadə (1938-2002) Xızı qəsəbəsində anadan olub.

**14 mart 1992** – Şair, tərcüməçi Teymur Elçin (Teymur Süleyman oğlu Əliyev; 28.3.1924 – 1992) vəfat edib. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir, rus ədəbiyyatından tərcümələr edib.

**15 mart 1878** – Maarif xadimi, şair Şeyx Məhəmməd Hacı Abdulla oğlu Rasizadə (1878 - 24.12.1939) Naxçıvanda anadan olub. Hüseyn Cavidin böyük qardaşıdır. Firdovsinin “Şahnamə”sindən parçaları dilimizə çevirib.

**15 mart 1893** – Əməkdar incəsənət xadimi, aşıq Şəmşir (Şəmşir Qurban oğlu Qocayev; 1893-1980) Kəlbəcər rayonunun Dəmirçidam kəndində anadan olub.

**15 mart 1897** – Xalq artisti Ağasadıq Ağaəli oğlu Gəraybəyli (1897 – 5.12.1988) Şamaxıda anadan olub. Azərbaycan Dövlət Akademik Dram Teatrının aktyoru olub. “Bəxtiyar”, “O olmasın, bu olsun”, “Qızmar günəş altında” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**15 mart 1911** – Əməkdar artist Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı (1911 – 5.10.1961) Bakıda doğulub. Gəncə Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**15 mart 1911** – Xalq artisti Əyyub Məmmədəli oğlu Haqverdiyev (1911 – 12.6.1996) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**15 mart 1914** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (1914 – 11.9.2001) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**15 mart 1919** – Xalq artisti, məşhur xanəndə Hacıbaba Hüseynəli oğlu Hüseynov (1919 – 24.10.1993) Bakıda anadan olub. Muğamatdan dərs deyib, xanəndələr yetişdirib. Çoxsaylı təsniflərin müəllifidir, istedadlı qəzəlxan kimi tanınıb.

**15 mart 1923** – Əməkdar incəsənət xadimi, tanınmış rəssam Nəcəfqulu Əbdülrəhim oğlu İsmayılov (1923-1990) anadan olub. Qrafika ustası kimi tanınıb, görkəmli şəxsiyyətlərin portretlərini, kitablara illüstrasiyalar çəkib.

**15 mart 1923** – Xalq artisti, aktyor Əkbər Hacı oğlu Qardaşbəyov (1923-2001) Naxçıvanda anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**15 mart 1932** – Əməkdar rəssam Sima Abbas qızı Ağayeva (1932-2021) anadan olub.

**15 mart 1941** – Şair, tərcüməçi, publisist İsa Mustafa oğlu İsmayılzadə (1941 – 14.7.1997) Gürcüstanın Qarayazı (indiki Qardabani) rayonunda anadan olub.

**15 mart 1941** – Şair, yazıçı, tərcüməçi Ələkbər Salahzadə (Ələkbər Baba oğlu Məmmədsalahlı; 1941 – 1.9.2013) Quba rayonunun Cimi kəndində anadan olub.

**15 mart 1949** – Xalq artisti, vokal ifaçısı Eldar Balağa oğlu Axundov (1949 – 17.9.2014) Lənkəranda doğulub.

**16 mart 1882** – Xalq artisti, vokalçı Vasili Alekseyeviç Nikolski (1882-1967) anadan olub. Opera və Balet Teatrının solisti olub, Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib.

**16 mart 1906** – Əməkdar incəsənət xadimi, kamança ifaçısı, bəstəkar Qılman Balaməmməd oğlu Salahov (1906 – 12.10.1974) Bakıda doğulub. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri olub.

**16 mart 1914** – Əməkdar incəsənət xadimi, rejissor Niyaz Səttar oğlu Şərifov (1914 – 15.5.1982) Bakıda anadan olub. Musiqili Komediya Teatrında çalışıb.

**16 mart 1916** – Əməkdar incəsənət xadimi, bəstəkar Zakir Cavad oğlu Bağırov (1916 – 8.1.1996) Şuşada anadan olub. “Aygün” operası, “Kəndimizin mahnısı”, “Qayınana” operettaları, mahnı və romansların müəllifidir, tamaşalara musiqi yazıb.

**16 mart 1940** – Cazmen, pianoçu, bəstəkar, caz-muğamın yaradıcısı, Əməkdar artist Vaqif Əziz oğlu Mustafazadə (1940 – 16.12. 1979) Bakıda doğulub. “Qafqaz” caz üçlüyü, “Sevil” vokal ansamblı və “Muğam” instrumental ansamblına rəhbərlik edib. Beynəlxalq müsabiqə və festivalların (Tallin, Tbilisi, Monte-Karlo) qalibi və laureatı olub.

**16 mart 2020** – Xalq artisti Rafael Məlik oğlu Dadaşov (4.1.1946 – 2020) vəfat edib. Akademik Milli Dram Teatrının səhnəsində, filmlərdə (“Bəxt üzüyü”, “Mənim ağ şəhərim”), televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

**17 mart 1905** – Şair, nasir, tərcüməçi Mikayıl Manaf oğlu Rzaquluzadə (1905 – 10.11.1984) anadan olub. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir. Rus və dünya ədəbiyyatından bədii tərcümələr edib.

**17 mart 1923** – Əməkdar artist Mirvari Balahacı qızı Novruzova (1923 – 20.3.1994) Bakıda doğulub. Akademik Milli Dram Teatrının aktrisası olub, filmlərdə, televiziya tamaşalarında çəkilib.

**17 mart 1932** – Fəlsəfə elmləri doktoru, Əməkdar elm xadimi Zümrüd Əliqulu qızı Quluzadə (1932 – 26.9.2021) anadan olub. Nizami, Nəsimi və Füzulinin fəlsəfi görüşlərinə dair tədqiqatların müəllifidir.

**18 mart 1916** – Şair, tərcüməçi Böyükağa Məmməd oğlu Qasımzadə (1916 - 29.8.1957) anadan olub. Rus ədəbiyyatından, M.Füzulinin “Yeddi cam” əsərini farscadan tərcümə edib.

**18 mart 1922** – Dramaturq Qeybulla İbadulla oğlu Rəsulov (1922 – 11.9.1988) Qax rayonunun İlisu kəndində doğulub. Pyesləri: “Günəşlə oyananlar”, “Şəhərli oğlan”, “Bir “Volqa” məhəbbət” və s.

**18 mart 1979** – Məşhur xanəndə, Xalq artisti Xan Şuşinski (İsfəndiyar Aslan oğlu Cavanşirov; 20.8.1901 – 1979) vəfat edib. “Şuşanın dağları”, “Ay gözəl” və s. mahnı və təsnifləri bəstələyib.

**19 mart 1901** – Xalq artisti Ələkbər Seyfulla oğlu Seyfi (1901 – 15.12.1977) Tiflisdə anadan olub. 1929-cu ildə Bakı Türk İşçi Teatrına dəvət alıb. Filmlərdə (“Uşaqlığın son gecəsi”, “Mən ki gözəl deyildim”) çəkilib.

**19 mart 1907** – Əməkdar artist Sadıq Saleh Xəlil oğlu Bağırov (1907-1977) Bakıda anadan olub. Dövlət Akademik Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**19 mart 1925** – Dövlət xadimi, yazıçı-publisist, maarifçi Nəriman Kərbəlayı Nəcəf oğlu Nərimanov (14.4.1870 – 1925) vəfat edib. Azərbaycanın sovetləşməsindən sonra respublika hökumətinin – Xalq Komissarları Şurasının sədri olub.

**19 mart 1928** – Tanınmış aktyor Əfrasiyab Məmmədov (1928 – 18.11.1990) Gəncədə doğulub. Akademik Dram Teatrında çalışıb, Dövlət Kukla Teatrında rejissor işləyib. “Qızmar günəş altında”, “Koroğlu”, “Dədə Qorqud” və s. filmlərdə çəkilib.

**19 mart 1994** – Xalq artisti, bəstəkar, cazmen Rafiq Babayev (31.3.1936 – 1994) Bakı metrosunda (“20 Yanvar” stansiyası) baş verən terror hadisəsində həlak olub.

**20 mart 1879** – Xalq artisti, tanınmış opera müğənnisi, pedaqoq Hüseynqulu Məlik oğlu Sarabski (Rzayev; 1879 – 16.2.1945) anadan olub. İlk milli operamız olan “Leyli və Məcnun”da Məcnun rolunun birinci və uzun illər əvəzsiz ifaçısı olub.

**20 mart 1906** – Əməkdar incəsənət xadimi, rejissor Ağəli Əliabbas oğlu Dadaşov (1906 – 7.12.1973) Bakıda doğulub. Akademik Dram, Gənc Tamaşaçılar, Gəncə, Naxçıvan teatrlarında, Azərbaycan Televiziyasında çalışıb. Dövlət İncəsənət İnstitutunda dərs deyib.

**20 mart 1912** – Azərbaycanın və Rusiyanın Xalq artisti, rejissor Ənvər Məcid oğlu Behbudov (1912-1998) anadan olub. Rusiyanın teatrlarında çalışıb. 60-70-ci illərdə Azərbaycanda Opera və Balet, Rus Dram teatrlarının baş rejissoru olub.

**20 mart 1928** – Xalq rəssamı, heykəltəraş Kamal Camal oğlu Ələkbərov (1928 – 21.5.2009) Füzuli rayonunda anadan olub. “Azərbaycanfilm” kinostudiyasında Cəfər Cabbarlının heykəli, görkəmli şəxsiyyətlərin qəbirüstü abidələrinin müəllifidir.

**20 mart 1945** – Azərbaycan dekorativ-tətbiqi sənətinin tanınmış nümayəndəsi, Əməkdar rəssam Zahid İsa oğlu Hüseynov (1945 – 27.7.2012) anadan olub. Azərbaycan Rəssamlıq Akademiyasının professoru olub.

**Hazırladı: V.Orxan**

# "Qarabağ" kolleksiyası Stokholmda nümayiş olunub



Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, Avrasiya Etnodizaynçılar Assosiasiyasının üzvü, modelyer-dizayner Gülnarə Xəlilovanın "Qarabağ" adlı kolleksiyası İsveç paytaxtında – 7-ci Stokholm Beynəlxalq Moda Sərgisində nümayiş olunub.

İsveç paytaxtındakı "Grand Hotel"də keçirilən ənənəvi sərgiyə çoxlu sayda yerli və xarici dəb həvəskarı, həmçinin bu ölkədə akkreditə olmuş diplomatik korpusun nümayəndələri qatılıblar.

Beynəlxalq Moda Sərgisində qonaqlara beş dizaynerin işi təqdim edilib. Azərbaycanın qədim geyim ənənələri və milli ornamentlərindən istifadə edilən, xalqımızın zəngin tarixini və yeni dəb tendensiyalarını özündə birləşdirən 9 libasdan ibarət "Qarabağ" kolleksiyası sərgi iştirakçılarının marağına səbəb olub.

Gülnarə Xəlilovanın "Qarabağ" kolleksiyasının beynəlxalq sərgidə nümayişi Azərbaycanın İsveçdəki Səfirliyinin dəstəyi ilə təşkil edilib.

# Parisdə azərbaycanlı qadın rəssamların sərgisi

Fransa paytaxtında Beynəlxalq Qadınlar Günü münasibətilə azərbaycanlı rəssamların əsərlərinin sərgisi açılıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, sərgi Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının, İnkişaf edən Millətlər Assosiasiyasının dəstəyi və Toğrul Nərimanbəyov Assosiasiyasının təşkilatçılığı ilə Parisin 5-ci rayon meriyasının tərkibində fəaliyyət göstərən Latın məhəlləsinin "İcma həyatı və Vətəndaş evi"ndə gerçəkləşib.

Martın 18-dək davam edəcək sərgidə rəssamlar Əsmər Nərimanbəyova, Sahib Əsədli, Təranə Seyid, Yeganə Hüseynova, Milana Kamıyeva, Nərminə Vəliyeva, Səidə Faqala-Haqverdi, Aysel Mirqasımova, Leyla Əliyeva, Elnarə Səfərova, Rəna Əmrahova, Yeganə Əsədovanın rəsm əsərləri, eləcə də fotoqraf Maya Bağırovanın çəkdiyi şəkillər yer alıb.



# "Hər şey hər yerdə və eyni anda"

## Adına layiq mükafat çələngi – yeddi "Oskar"

Amerika Kino Akademiyasının 2023-cü il "Oskar" mükafatına namizədlər siyahısında favorit olan "Hər şey hər yerdə və eyni anda" ("Everything everywhere all at once") filmi proqnozları doğruldub və üst-üstə yeddi heykəlcik qazanıb.

Los-Ancelesdəki "Dolby" teatrında keçirilən "Oskar" gecəsi (13 mart) ssenari müəllifləri və rejissorlar Den Kvan və Daniel Şaynert olan ekran əsərinin yaradıcı heyəti üçün əsl benefis olub.

"Hər şey hər yerdə və eyni anda" elmi-fantastik komediyası 95-ci "Oskar" mərasimində əsas mükafat – "Ən yaxşı film" nominasiyası ilə bərabər "Ən yaxşı rejissor işi", "Ən yaxşı orijinal ssenari", "Ən yaxşı montaj" nominasiyalarında da qalib seçilib. Bundan əlavə, filmdə baş rolun ifaçısı Mişel Yeo "Ən yaxşı aktrisa" nominasiyasında, Ceymi Li Körtis və Ke Hyui Kvan isə ən yaxşı ikinci plan aktrisası və aktyoru kimi mükafata layiq görülüblər.

Beləliklə, ekran əsəri 2009-cu ildə səkkiz heykəlcik qazanan "Gecəqondu milyonçusu"ndan sonra ən çox "Oskar" çələngi toplayan film olub. Filmdə paralel kainatlarda qadının şərlə mübarizəsindən bəhs olunur. Xatırladaq ki, "Hər şey hər yerdə və eyni anda" filmi ümumilikdə 11 nominasiya üzrə mükafata iddialı idi. Absurd komediya, elmi fantastika, Şərq döyüş sənəti, fantaziya və cizgi filmi elementlərinin bir araya gəldiyi film camaşırxanada çalışan və vergi müfəttişliyinə gedərkən paralel dünyalar arasında





səyahət edə bildiyini aşkarlayan çinli mühacir qadının həyatından bəhs edir.

2023-cü il "Oskar" gecəsində "Ən yaxşı film" nominasiyasına iddialılar arasında Stiven Spilberqin "Fabelmanlar" (2022), Ceyms Kameronun "Avatar: suyun yolu", Sara Pollinin "Qadınlar danışır", Martin Makdonaxın "İnişerinin ölüm pərisi", Baz Lurmanın "Elvis", Todd Fildin "Tar", Cozef Kosinskinin "Top Qan: Meverik" və Ruben Estlundun "Qəm üçbucağı" filmləri də vardı. Onlardan yalnız Ceyms Kameronun filmi "ən yaxşı vizual effektlər" kateqoriyasında "Oskar"a layiq görülüb.

95-ci "Oskar" gecəsində özündən söz etdirən ikinci ekran əsəri isə "Qərb cəbhəsində dəyişiklik yoxdur" (Almaniya) filmi olub. Erix Maria Remarkın məşhur romanı əsasında çəkilən film ümumilikdə 9 nominasiya üzrə "Oskar"a namizəd idi və dörd heykəlcik qazanıb: "Ən yaxşı xarici bədii film" (ingilis dilində olmayan), "Ən yaxşı operator işi", "Ən yaxşı orijinal saundtrek" və "Ən yaxşı quruluşçu rejissor işi". Alman rejissor Edvard Bergerin müharibə əleyhinə filmi bundan öncə Britaniya Kino və Televiziya Sənəti Akademiyası – BAFTA-nın "Ən yaxşı film" nominasiyası üzrə mükafatını almışdı.

Digər nominasiyalardan "Ən yaxşı aktyor" adını Brendan Freyzer (Darren Aronofskinin "Kit" filmi), "Ən yaxşı animasiya filmi" mükafatını Hilyermo Del Toro və Mark Qustafsonun "Pinokkio"su mükafat qazanıb.

Budəfəki "Oskar" mərasimi də siyasi çalarsız ötüşməyib. "Ən yaxşı sənədli film" nominasiyasında kanadalı rejissor Daniel Roerin rusiyalı müxalif məhbus (2021-ci ildən həbsdədir) Aleksey Navalnı haqqında filmi mükafat qazanıb. Təqdimatda onun ABŞ-da olan ailə üzvləri də səhnəyə çıxıblar. "HBO Max" və "CNN Films"in sifarişi ilə çəkilən "Navalnı" filminin mükafat qazanması isə ən çox Ukraynada narazılıq doğurub.

Xatırladaq ki, bir qədər əvvəl Ukrayna Prezidenti Volodimir Zelenskinin "Oskar" mərasiminə videoformartla qoşulub dünyaya müraciət etmək istəyinə təşkilatçılar siyasətdən kənar olduqlarını bildirərək razılıq verməmişdilər. Ukrayna Prezidenti Ofisinin müşaviri Mixail Podolyak qeyd edib ki, "Oskar" siyasətdən kənardırsa və Ukraynadakı müharibədən uzaqdırsa, Rusiyanın daxili siyasətindən bəhs edən "Navalnı" sənədli filminin təltif edilməsini necə başa düşmək olar...

**V.Kamal**




Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 195 il əvvəl...

**20 mart 1828-ci ildə** çar I Nikolay Türkmənçay müqaviləsini (10 fevral 1828-ci il) təsdiq edib və Rusiyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqları ərazisində "Erməni vilayəti"nin yaradılması barədə fərman verib. "Erməni vilayəti" 1840-cı ildə İrəvan qəzası adı ilə Tiflis-İmereti quberniyasının tərkibinə daxil edildi. 1849-cu ildə İrəvan quberniyası (1917-ci ilədək) təşkil edildi.

### 142 il əvvəl...

**13 mart 1881-ci ildə** Rusiya "Narodnaya volya"nın ("Xalqçılar") inqilabçı-terror təşkilatının üzvləri çar II Aleksandrı qətlə yetiriblər. 1855-ci ildə taxta çıxan II Aleksandra qarşı 10 dəfə sui-qəsd təşkil edilmişdi. Halbuki o, mütərəqqi çar kimi tarixə düşmüş, taxta çıxandan sonra dekabristlərə amnistiya vermiş, təhkimçilik hüququnu ləğv etmiş (1861), dövlət idarəçiliyində islahatlar aparmışdı.

### 108 il əvvəl...



**18 mart 1915-ci ildə** Birinci Dünya müharibəsində Osmanlı ordusu ilə Antanta ittifaqının (Britaniya, Fransa, Rusiya) ingilis-fransız qoşunları arasında baş verən Çanaqqala savaşının (Gelibolu yarımadası) əsas mərhələsi (dəniz savaşı) türklərin zəfəri ilə başa çatıb. Bir ay ərzində Çanaqqala limanını müdafiə edən Osmanlı qoşunları ingilis-fransız qüvvələrini geri oturdub. Çanaqqalada quru döyüşləri 1916-cı ilin yanvarınadək sürdü.

### 102 il əvvəl...

**16 mart 1921-ci ildə** Rusiya ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında Moskva müqaviləsi bağlanıb. Sənəddə Naxçıvan Azərbaycanın ərazisi kimi təsdiqlənir və Türkiyə bölgənin qarantı kimi çıxış edirdi. Moskva müqaviləsinin müddəaları əsasında 1921-ci il oktyabrın 13-də Qars müqaviləsi (Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan) imzalandı.

### 55 il əvvəl...

**16 mart 1968-ci ildə** ABŞ qoşunlarının Cənubi Vyetnamda apardığı müharibə zamanı Sonqmi kəndi əhalisi ilə birlikdə yandırılıb. Rəsmi statistikaya görə, kəndin 567 nəfər qoca, qadın və uşaq sakini qətlə yetirilmişdi.

### 31 il əvvəl...

**13 mart 1992-ci ildə** Türkiyənin Ərzincan vilayətində 6,8 bal gücündə zəlzələ baş verib. 8 minə yaxın binanın tamamən və qismən dağıldığı təbii fəlakət nəticəsində 653 nəfər ölmüşdü.

### 29 il əvvəl...



**19 mart 1994-cü ildə** Ermənistan xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında terror aktı törədilib. Partlayış nəticəsində 14 nəfər həlak olub, 49 nəfər yaralanıb.

### 28 il əvvəl...

**15-17 mart 1995-ci ildə** Bakıda Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) qiyamı baş verib. Qiyamçılara XTPD-nin rəhbəri, daxili işlər nazirinin müavini Rövşən Cavadov başçılıq edirdi. Prezident Heydər Əliyev məsələni dinc yolla sahmanlamaq üçün bir sıra addımlar atdı, amma nəticə hasil olmadı. Martın 17-də qiyam zəruri güc tətbiq edilməsi ilə yatırıldı.

### 20 il əvvəl...

**20 mart 2003-cü ildə** ABŞ və Böyük Britaniya qoşunları Səddam Hüseyni devirmək üçün İraqa qarşı müharibəyə başlayıblar. Üç həftə sonra, aprelin 9-da Səddam rejimi devrildi. İraqda 200 mindən çox insanın həyatına son qoyan müharibə isə illərlə davam etdi. ABŞ qoşunları İraqı 2021-ci ildə tərk etdi.

**Hazırladı: V.Orxan**

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun xarici ölkələrlə tərəfdaşlığı genişlənir



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Litva Respublikasına səfəri çərçivəsində ölkə prezidentinin təhsil, elm və mədəniyyət sahələri üzrə müşaviri Vilma Backiute və Litva xarici işlər nazirinin müavini Jonas Survila ilə görüşlər keçirib.

Görüşlərdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Litva arasında imzalanmış əməkdaşlıq memorandumunun əsasında qarşılıqlı fəaliyyətdən söz açılıb. Litvanın ərazisində yaşayan türk etnik kökənli xalqlara – tatarlara və karaimlərə dövlət səviyyəsində göstərilən diqqətin əhəmiyyətindən bəhs olunub. Litvada 2021-ci ilin "Tatarların tarixi və mədəniyyəti ili", 2022-ci ilin isə "Karaimlərin tarixi və mədəniyyəti ili" elan olunması bunun bariz nümunəsi kimi vurğulanıb.

Litvanın birinci xanımı Diana Nausediene və xarici işlər naziri Qabrielius Landsberqisin Bakıya səfəri zamanı Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu ziyarəti məmnuniyyətlə qeyd olunub. Fondun Avropada əməkdaşlıq əlaqələrini genişləndirməsi yüksək dəyərləndirilib.

Görüşlərdə Azərbaycanın Litvadakı səfiri Tamerlan Qarayev, Litvanın ölkəmizdəki səfiri Egidius Navikas iştirak ediblər.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Litvaya səfəri çərçivəsində Trakai şəhərində əsrlər boyu yaşayan Litva karaimlərinin nümayəndələri ilə görüşüb. O, Litva karaimlərinin tanınmış nümayəndəsi, diplomat, tərcüməçi Halina Kobeckaiteyə türk xalqlarının bir-birinə daha da yaxınlaşmasında göstərdiyi xüsusi xidmətlərə görə təşkilatın təsis etdiyi "Dədə Qorqud" mükafatını təqdim edib.

Günay Əfəndiyeva Azərbaycanın Litvadakı Səfirliyində tatar icmasının nümayəndələri ilə təşkil olunmuş görüşdə də iştirak edib.

# Builki "Novruz" iyuna qaldı

Tatarıstanın paytaxtı Kazanda keçirilən ənənəvi "Novruz" teatr festivalı bu il yayda gerçəkləşəcək. 5-11 iyun tarixlərinə nəzərdə tutulan XVI "Novruz" Beynəlxalq Teatr Festivalında iştirak edəcək tamaşaların seçimi artıq başa çatıb.

Teatr bayramında Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Rusiya Federasiyasının Şimali Osetiya-Alaniya, Adıgey, Dağıstan, Çeçenistan, Kabardin-Balkar, Çuvaşiya, Başqırdıstan, Saxa-Yakutiya, Altay, Tıva və Tatarıstan respublikalarını təmsil edən teatr kollektivləri iştirak edəcəklər. Moskvanın "Dram sənəti məktəbi" və "Et cetera" teatrları isə festivala məxsusi qonaq qismində qatılacaq. Tamaşalar Kazanın yeddi səhnəsində oynanılacaq.

Festivalın təsisçisi Tatarıstan Respublikası Mədəniyyət Nazirliyi, təşkilatçısı isə Q.Kamal adına Tatarıstan Dövlət Akademik Teatrıdır.

Rusiya Federasiyası milli regionları arasında teatr əlaqələrinin inkişafı və möhkəmlənməsi məqsədilə keçirilən festival bu dəfə Şimali Qafqaz xalqlarının teatrlarına həsr olunub.

**Gülcahan**

# Dünyanın ən böyük turist bazarı

## Çin Azərbaycana turist səfərlərini bərpa edir

Dünyanın ən böyük turist bazarı olan Çin pandemiya ilə bağlı üçillik aradan sonra xaricə qrup turist səfərlərinin təşkilinə başlayıb. Çinin Mədəniyyət və Turizm Nazirliyinin martın 15-də qüvvəyə minən müvafiq qərarı ilə turizm agentlikləri Fransa, İspaniya, İtaliya, Braziliya kimi populyar turizm təyinat məntəqələri daxil olmaqla 40 ölkəyə, o cümlədən Azərbaycana qrup turist səfərləri təşkil edə biləcək.

Çinin populyar onlayn səyahət platforması olan "Tongcheng Travel"in məlumatına əsasən, nazirliyin qərarı elan olunandan sonra sözügedən ölkələrə viza müraciətləri 4 dəfə çoxalıb.

Çindən xaricə qrup turist səfərləri 2020-ci ilin əvvəlindən COVID-19 pandemiyası səbəbindən dayandırılmışdı. Xaricə qrup turist səfərlərinin bərpasına fevralın 6-dan başlanılıb. İlkin mərhələdə qonşu ölkələrə, o cümlədən Tailand, İndoneziya, Malayziya, Laos daxil olmaqla 20 dövlətə qrup turist səfərlərinə icazə verilmişdi.

Pandemiyadan öncəki 2019-cu ildə təxminən 160 milyon Çin vətəndaşı xaricdə turist səfərində olub. Həmin dövrdə qlobal turizm gəlirinin təxminən 15 faizi çinli turistlər tərəfindən təmin edilirdi.

Pandemiyaya qədər Çindən Azərbaycana turist səfərlərinin sayında da artım müşahidə olunurdu. Çində Azərbaycan Turizm Bürosunun nümayəndəliyi fəaliyyət göstərir. 2019-cu ilin martında isə Pekində "Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi arasında çinli turistlərin Azərbaycan Respublikasına qrup səfərlərinin sadələşdirilməsi haqqında" anlaşma memorandumu imzalanıb.

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova və muzeyin kollektivi Azərbaycan Teatr Xadimləri İttifaqının əməkdaşı Xatirə Babayevaya həyat yoldaşı

**Qulam Babayevin**

vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

**MƏDƏNİYYƏT**

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 737
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641